

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

02 oktyabr 2024-cü il, çərşənbə
№ 180 (6766)
Qiymәti 60 qәpik


## İlham Əliyev: Bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir

## İnam olan yerdə qayıdış da mütləq olacaq!



Bax səh. 2

## Zəfərə 38 gün qalırdı...

Bax səh. 2

## COP29-dan sonra...



Bax səh. 3

## Hüququn aliliyinin təmini...

Hüquq və ya hüququn aliliyi anlayışı müasir dövrdə dünya miqyasında ən çox deqradasiyaya uğrayan istiqamətlərdən sayılır. Günü-gündən artan qlobal miqyaslı kataklizmlər, beynəlxalq müstəvidə hüquq anlayışına ikili standartlarla münasibət, eyni motivli hüquq prosedurlarına fərqli baxış bu fikri təsdiqləyir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etdirdiyi işğal siyasəti bunun bariz misallarındandır - 20 faizə yaxın torpağı işğal altında olan, bir milyona yaxın vətəndaşı öz doğma yurdunda yaşamaq hüququndan məhrum edilmiş, tarixi-dini, mədəni abidələri...

Bax səh. 3

## Rəqəmsal dəmir yolu




Bax səh. 5

## İxracın və investisiyaların yeni ünvanı

Azərbaycanla Körfəz ölkələri arasında siyasi, iqtisadi, humanitar əlaqələr son illərdə intensivləşərək yüksək səviyyəyə qalxıb. Respublikamızın Körfəz Əməkdaşlığı Şurasında (KƏŞ) yer almasından sonra əlaqələrin dinamikası daha da genişlənib. Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Omandan ibarət Körfəz Əməkdaşlıq Şurası Azərbaycanla ikitərəfli və çoxtərəfli əlaqələri artırmaq üçün müxətlif siyasi-iqtisadi qərarlar qəbul edib. Ölkəmizdə səfərdə olan Körfəz Əməkdaşlıq Şurasının baş katibinin və nümayəndə heyətinin Azərbaycanın dövlət başçısı səviyyəsində qəbul edilməsi bu region ölkələri ilə münasibətlərin strateji gündəliyini daha da zənginləşdirib.

KƏŞ ölkələri SPECA-nın Zirvə görüşündə iştirak edərək Azərbaycanla çoxşaxəli proqamların həyata keçirilməsi imkanlarını...

Bax səh. 4

## Yeni biznes qiymətləndirməsi

Dünya Bankının (DB) oktyabr ayında ənənəvi “Doing Business” hesabatının əvəzində daha təkmil və yeni meyarlara əsaslanan “Business Ready” (B-Ready) hesabatının dərc olunması nəzərdə tutulur. Yeni layihədə müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın biznes sektoruna birbaşa və dolayısı ilə aidiyyəti olan sahələrin, xüsusilə də vergi, gömrük, ticarət, maliyyə, biznes mühiti və s. indikatorlar üzrə qiymətləndirmələr əsasında yekun rəy veriləcək. DB-nin yeni metodologiyasına əsasən, həmin ölkələrin beynəlxalq biznes mövqeyi müəyyənləşəcək.

**“Doing Business”də islahatçı ölkə...**

Azərbaycan neçə illərdir ki, Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində biznes sahəsində islahatları davam etdirir, DB-nin təklif və tövsiyələri əsasında biznes mühitinin yaxşılaşdırılmasına təsir edən sahələr üzrə qabaqcıl təcrübələri tətbiq edir. Bu islahatların mühüm nəticələrindən biri kimi, Azərbaycan...

Bax səh. 4

## Sosial və siyasi mədəniyyət

Gənclərin cəmiyyətə adaptasiyası üçün onların öz hüquqlarını dərk etməsi, vəzifələrini yerinə yetirməsi, məsuliyyətlilik və intizamlılığın artırılması mühüm amildir. Vətəndaşlıq tərbiyəsi şəxsiyyətin formalaşmasında ən başlıca ünsürdür. Çünki bu tərbiyəyə diqqət edilmədikdə kamil insan və yetkin şəxsiyyət yetişdirmək düzgün deyil. Belə ki, şəxsiyyət ilk növbədə vətəndaşlıq məziyyətlərinə, yəni vətəndaşlıq ləyaqətinə, müstəqillik, dövlətçilik ruhuna malik olmalıdır.

Məlumdur ki, Azərbaycan milli ənənələrə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən hüquqi bir dövlətdir. Bu baxımdan vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək üçün dövlətimiz sosial siyasətini uğurla həyata keçirir. Hər bir dövlətin Konstitusiyası hüquqi, sosial, siyasi funksiyaları ilə yanaşı, tərbiyəvi funksiyanı da əhatə edir. Bu da hər şeydən...

Bax səh. 6

## 101-ci Baş nazir...

Yaponiyada yeni hökumət formalaşıb. Fumio Kişidanın rəhbərlik etdiyi hökumət tam tərkibdə istefa verib. Bu barədə Yaponiya hökuməti başçısının dəftərxanası məlumat yayıb. Bildirilib ki, Fumio Kişidanın kabinetində yer alan bütün hökumət üzvləri istefa ərizələrini yazıblar. Yeni hökumətə hakim Liberal Demokratik Partiyanın (LDP) yeni sədri Siqeru İsiba rəhbərlik edəcək. Oktyabrın 1-də Yaponiya parlamentinin hər iki palatasında keçirilmiş səsvermənin nəticələrinə əsasən, o, bu posta seçilib. Beləliklə, Siqeru İsiba Yaponiyanın sayca 101-ci Baş naziri olub.

**Siqeru İsiba söz verib**

Siqeru İsiba F.Kişidanın səlahiyyət müddətinin başa çatması ilə əlaqədar sentyabrın 27-də keçirilən seçkilərdə LDP-nin sədri vəzifəsinə gəlib. Sədr seçkisinin birinci turunda 9 namizəddən heç biri yetərli sayda səs yığa bilmədiyi üçün ikinci mərhələ təşkil olunmuşdu. İkinci turda Siqeru İsiba iqtisadi təhlükəsizlik məsələləri üzrə dövlət naziri xanım Takayçi Sanaeyə qalib gələrək, qısa fasilələrlə 1955-ci ildən Yaponiyada hakimiyyətdə olan mühafizəkar...

Bax səh. 7

## Yaxın Şərq yeni dünya qarşıdurmasının nüvəsi rolunda...



Bax səh. 7

## AŞPA-nın payız qürubu




Bax səh. 5

# İnam olan yerdə qayıdış da mütləq olacaq!

**Bu günlərdə Prezident İlham Əliyevin və oğlu Heydər Əliyevin iştirakı ilə paytaxtımızın gözəl guşələrindən birində böyük el sənətkarı, Azərbaycan poeziyasının dühası və Göyçə aşıq məktəbinin parlaq siması olan Aşıq Ələsgərin (1821-1926) abidəsinin açılışı baş tutdu. Aşıq Ələsgər Qərbi Azərbaycanda - Azərbaycan aşıq sənətinin tarixi mərkəzlərindən olan Göyçə mahalında yaşayıb-yaradıb, misilsiz bədii-estetik ustalığı ilə xalqımızın ruhunu əks etdirən əsərlər yaradıb və ozan-aşıq sənətinin minillik ənənələrinə yeni nəfəs verib. Prezident İlham Əliyevin Sərəncamı ilə Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə aşıq sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilməsi Aşıq Ələsgər yaradıcılığının ümumbəşəri dəyər kimi əbədiləşdirilməsində əvəzsiz rol oynayıb. Ancaq Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən Bakının mərkəzində Aşıq Ələsgərə abidə ucaldılmasını dövlətimizin başçısının milli mədəniyyətimizə, ədəbiyyatımıza, aşıq sənətinə yalnız diqqət və qayğısının ifadəsi kimi dəyərləndirmək doğru olmazdı. Prezident İlham Əliyevin Özü açılış tədbirindəki çıxışında Bakıda baş tutan mədəniyyət hadisəsini iki baxış bucağından qiymətləndirərək vurğulayıb: “Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik”. Dövlətimizin başçısının xalqımıza növbəti dəfə bir amal uğrunda birləşməyə çağırış etməsi Qərbi Azərbaycan İcması (QAİ) tərəfindən birmənalı şəkildə dəstəklənib. QAİ-nin yaydığı bəyanatda da Prezident İlham Əliyevin Aşıq Ələsgər irsini yaxından himayə etməsi həm də Qərbi Azərbaycana qayıdış məsələsinə, Ermənistanın işğal, etnik təmizləmə və irqi ayrı-seçkilik siyasətindən zərər görmüş Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinə diqqətinin göstəricisi kimi dəyərləndirilib. “Prezidentin çıxışından da göründüyü kimi, Aşıq Ələsgərin qaçqınlıqla keçmiş ağrılı həyat yoluna dərindən bələd olması onun Qərbi azərbaycanlıların taleyinə nə qədər yaxından qayğı göstərdiyinin təzahürüdür”, - deyə QAİ-nin yaydığı bəyanatda vurğulanır.**

## İlham Əliyev: Bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir



## Bir əsrdə üç deportasiya

İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə Prezident İlham Əliyev ötən əsrin səksəninci illərinin sonu - doxsanıncı illərinin əvvəllərində doğma yurd yerlərindən zorla qovulmuş qaçqın və məcburi köçkünlərlə görüşlərində hər dəfə tarixi torpaqlarımıza qayıdacağımıza dərin inam ifadə edirdi. Dövlətimizin başçısı ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunduqdan sonra isə yenidən xalqımızı bir amal uğrunda birləşməyə çağırır. Bu dəfə müəyyənlləşdirilən hədəf Qərbi Azərbaycana qayıdışdır!

Bu tam tam real bir hədəfdir və xalqımızın haqqıdır! Zaman çatıb ki, artıq bir vaxtlar Qərbi azərbaycanlılara qarşı edilən tarixi haqsızlıqlara da son qoyulsun! Həmin tarix çox nisgilli və ağrılıdır. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. İndiki Ermənistanın ərazisində tarix boyu azərbaycanlılar yaşayıblar. Bunu təsdiqləyən tarixi sənədlər və xəritələr var. Günümüzə qədər gəlib çatan həmin xəritələrdə onlarla yaşayış məntəqəsinin adları qeyd olunub. Toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir. Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq və tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıqlar göstərib. Bununla belə, tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı doğma torpaqlarından məhrum edilib. XX əsr bu baxımdan xalqımız üçün xüsusilə faciəvi olub. Tarixə ekskurs edən Prezident İlham Əliyev “Qeyd etdiyim kimi, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır - 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir”, - deyə bildirib.

1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından biri ilə tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. İrəvan veriləndə bəziləri düşünürdülər ki, daha ermənilər dayanacaqlar, bir daha Azərbaycandan torpaq istəməyəcəklər. Lakin söhbət ermənilikdən gedirsə, bunu gözləməyinə dəyməz. Həqiqətən də özlərinin xəbis niyyətlərindən çıxış edən, “dənizdən dənizə Ermənistan” xülyaları ilə yaşayan ermənilər dayanmadılar və havadarlarını irəli verərək respublikamızdan yenidən torpaq qopartmaq üçün növbəti cəhdlərini etdilər. Beləliklə, 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti haqsızlıq və cinayət idi. İrəvanın və Zəngəzurun Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların faciələri bitmədi. 1948-1953-cü illərdə soydaşlarımız növbəti deportasiyaya məruz qalıb və ittifaq hökumətinin qərarı ilə doğma yurd yerlərindən çıxarılıblar. Ötən əsrin səksəninci illərinin sonlarından etibarən sovet hökuməti xalqımıza qarşı növbəti cinayətə rəvac verib. Bu dəfə böyük siyasətçi Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Belə ki, mərkəzi hakimiyyətin dəstəyi ilə ermənilər Qarabağdan və ovaxtkı Ermənistan Respublikasından azərbaycanlıları son nəfərədək deportasiya etməyə nail oldular. Həmin dövrdə Ermənistandakı 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə, 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. Beləliklə, 1987-ci ildən başlamış və 300 min azərbaycanlının Ermənistandan qovulması ilə nəticələnmiş sonuncu deportasiya başa çatmış və bunun nəticəsi olaraq, Ermənistan monoetnik dövlətə çevrilmişdir. “Vaxtilə azərbaycanlıların çoxluq təşkil etdikləri, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin mərkəzlərindən olan Qərbi Azərbaycan mahallarında etnik təmizləmə nəticəsində bir nəfər də azərbaycanlı qalmayıb, oradakı Azərbaycan mədəni irsi ciddi zərər görüb”, - deyə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda vurğulanır.

## Xalqın əyilməz ruhu

Azərbaycan xalqının son 200 ildə üzləşdiyi haqsızlıqlar, çəkdiyi əzab-əziyyətlər və sonda haqq etdiyi doğma yurd yerlərinə qovuşmaq səadəti bir daha ilahi ədalətin və torpağın cazibə qüvvəsinin nə qədər güclü olduğunu əyani şəkildə təsdiqlədi. Ötən iki yüzillikdə müxtəlif mərkəzlərdə xalqımıza, tarixi ərazilərimizə qarşı çoxsaylı məkrli planlar qurulub, ssenarilər hazırlanıb. Ancaq Azərbaycan xalqı haqqa tapınmaqla, tarixi ədalətə istinad etməklə böyük güclərin oyunlarını pozmağa, ermənilərin saxta miflərini dağıtmağa müyəssər oldu. Biz Vətən müharibəsində, lokal xarakterli antiterror tədbirlərində yalnız ermənilərə deyil, həm də onların havadarlarına, böyük güclərə qalib gəldik. Prezident İlham Əliyevin çıxışında işğal dövründə ölkəmizə və şəxsən Ona göstərilən təzyiq cəhdlərindən bəhs edib. Çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında belə fikirlərin aşılanmasına cəhdlər edilirdi ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaqdan başqa çıxış yolu yoxdur, gənc nəsli sülhə hazırlanmalıdır, bu münaqişənin hərbi həlli yoxdur və s. Bəlli idi ki, bizi yolumuzdan döndərmək, bizə bədbinlik duyğuları aşılamaq istəyirdilər. Ancaq düşmən və onun havadarları qarşılarında Azərbaycan dövlətinin gücünü və xalqımızın yenilməz iradəsini gördülər. Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev üç onillik ərzində ərazi bütövlüyümüzün bərpasını ölkə gündəminin, aparılan siyasətin mərkəzində saxladı. Və bu məqsədə çatmaq üçün praktiki müstəvidə ardıcıl tədbirlər görüldü - respublikanın güclü iqtisadiyyatı formalaşdırıldı, istənilən vəzifəni yerinə yetirməyə qadir olan müasir Ordu quruldu.

Dövlətin əsas hədəfimizə çatmaq üçün gördüyü preventiv tədbirlər öz yerində. Bizi güclü və yenilməz edən həm də xalqımızın əyilməz ruhu və torpaq sevgisi idi. Bəzi xalqlar, o cümlədən də ermənilər üçün doğma torpaq anlayışı çox da böyük önəm daşımır. Onlar buqələmun kimi istənilən şəraitə adaptasiya olunurlar və həyatlarını qururlar. Götürək, elə zamanında N.Paşinyan başda olmaqla ermənilərin Şuşada, Xankəndidə eyş-işrət məclisləri qurmalarını, sərxoş vəziyyətdə əylənmələrini. Belə tədbirlərdə N.Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” deməsi su içmək kimi asan idi. Torpağı qorumağa, qurub yaratmağa gəldikdə isə, ermənilər belə əməllərdən çox uzaq idilər. Onlar işğalın davam etdiyi otuz il ərzində Qarabağda ancaq qurulu şəhər və kəndləri dağıtmaqla, sərvətlərimizi talamaqla məşğul olmuşdular, hansısa bir quruculuq işi görməmişdilər. Bunu işğaldan azad olunmuş ərazilərimizdəki vəziyyət əyani şəkildə təsdiqləyir. Azərbaycan xalqı isə qəlbən torpağa, yurd yerlərinə bağlıdır. Biz qurub-yaradan xalqıq. Müharibə başa çatandan sonra Ermənistan mətbuatı Azərbaycanın Qarabağı dirçəltməyə heç vaxt gücü çatmayacağı və yaxud bunun uzun prosesə çevriləcəyi barədə yalanlar tirajlayırdı. Həyat isə əksini təsdiqlədi. Qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. İndi bizim yeganə rəqibimiz zamandır. Artıq Qarabağa “Böyük Qayıdış”a da start verilib və orada məskunlaşma uğurla davam edir. Prezident İlham Əliyev əminliklə belə bir fikri ifadə edib: Həyat və reallıq onu göstərir ki, hər şey bizim əlimizdədir. Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. “Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, “Böyük Qayıdış” proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir. Qarabağın işğalı dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır”- deyə dövlətimizin başçısı vurğulayıb.



## Artan ümidlər: Biz Qərbi Azərbaycana qayıdacağıq!

İnam olan yerdə Qərbi Azərbaycanımıza qayıdış da mütləq olacaq! Dövlətimizin başısının Qərbi Azərbaycana qayıdışı hədəf kimi müəyyənləşdirməsi və buna dərin inamını ifadə etməsi təsadüfi deyil. Çıxışda vurğulandığı kimi, Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Bu ideya yeni deyil. Prezident İlham Əliyev hələ çox-çox əvvəl bununla bağlı fikirlərini ifadə edib və Onun çağırışı cəmiyyətimizdə ciddi rezonanas doğurub, Qərbi Azərbaycandan olan soydaşlarımızı geri dönüşə ruhlandırıb, onların qəlbində haqqın, ədalətin bərpa olunacağına ümid yaradıb. Qərbi azərbaycanlılar da Şuşadan, Laçından, Ağdamdan, Zəngilandan olan soydaşlarımız kimi yurd yerlərinə bağlıdırlar və bu hisslər nəsillərdən-nəsillərə ötürülür. İnsanların içindəki ruh, istək onları doğma yerlərə səsləyir. Bakıda abidəsi ucaldılan Aşıq Ələsgərin taleyini xatırlayaq. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda oxuyuruq: “Prezidentin ifadə etdiyi kimi, Aşıq Ələsgərin həyat yolu bütün Qərbi azərbaycanlıların taleyini təcəssüm edir. Sözə, sənətə, humanist dəyərlərə bağlı olan, vətənpərvər şair öz doğma yurdundan qaçqın düşsə də, ruhdan düşməmiş, 100 yaşında öz yurduna qayıdaraq yandırılmış evini bərpa etmiş və ömrünün son günlərinə qədər orada yaşamışdır. Biz ruhdan düşmürük, necə ki, 1921-ci ildə qayıtdıq, yenə də qayıdacağıq”.

Qərbi Azərbaycana dönüş bu gün bizim ümummilli ideyamızdır. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək.

Yeni hədəfimizə böyük ümid yaradan əsas amil isə heç şübhəsiz ki, Qərbi Azərbaycandan olan soydaşlarımızda yurd yerlərinə qayıtmaq istəyinin çox güclü olmasıdır. Dövlətimizin başçısının çağırışı onların qayıtmaq əzmini daha da möhkəmləndirib. Bunu QAİ-nin yaydığı bəyanatda ifadə olunan aşağıdakı fikirlərdən də görmək mümkündür: “Biz Qərbi Azərbaycan İcması olaraq Prezident İlham Əliyevin ədalətin bərpasına, xalqımızın birliyinə və əyilməz ruhuna yönəlmiş çağırışlarını tam dəstəkləyirik. Doğma torpaqlarımıza sülh yolu ilə ləyaqətlə və təhlükəsiz şəkildə qayıdışımızın təmin edilməsi üçün dövlətimizin atacağı bütün addımlarda bundan sonra fəal şəkildə iştirak edəcəyik”.

***Mübariz ABDULLAYEV***

## Zəfərə 38 gün qalırdı...

*2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.*

**Vətən müharibəsinin 6-cı günü**

**02.10.2020**

Ağdərə istiqamətində qoşunlarımız Madagiz ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır.

Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub.

Murov dağı istiqamətində də əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Saat 00:00-dan 07:00-dək düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib.

Əldə edilən digər məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxaraq müxtəlif bəhanələrlə döyüşdən imtina edirlər.

Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətlərdə hakim mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş ruhunu və qələbə əzmini daha da artırır.

***

Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan tərəfinə yaşayış məntəqələrimizi atəşə tutmamaları barədə dəfələrlə xəbərdarlığına baxmayaraq bu dəqiqələrdə Ağdam rayonunun Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli kəndləri düşmən tərəfindən intensiv artilleriya atəşinə tutulur.

Mülki əhali arasında ölən və yaralananlar var.

***

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsini raket, işğal olunmuş ərazilərimizdən isə Ağdamın Quzanlı yaşayış məntəqəsini artilleriya atəşinə tutur.

***

Ermənistan silahlı qüvvələri Bərdə rayonunun Əmirli, Tovuz rayonun Ağdam və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini artilleriya atəşinə tutur.



***

Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edilib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Əl-Cəzirə” televiziya kanalına müsahibə verib.

# COP29-dan sonra...

## Qlobal iqlim çağırışları üçün Bakı platforması

**Azərbaycan COP29-dan sonra iqlim çağırışları ilə bağlı başqa bir mühüm tədbirə - 2026-cı ildə BMT-nin Bioloji Müxtəliflik haqqında Konvensiyasının növbəti, sayca 17-ci Tərəflər Konfransına ev sahibliyi edə bilər. Atıq ölkəmizin konfransa ev sahibliyi etməsi üçün namizədliyi irəli sürülüb. Bunu ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev Bakıda İqlim Fəaliyyəti Həftəsinin açılış mərasimində deyib. Nazir bildirib ki, ev sahibliyi ilə bağlı yekun qərar bu ayın sonunda Kali şəhərindəki COP zamanı qəbul ediləcək.**

**Bioloji Müxtəliflik haqqında Konvensiya (Convention on Biological Diversity) - 5 iyun 1992-ci ildə Rio-de-Janeyroda qəbul edilmiş beynəlxalq müqavilədir. Konvensiyanın məqsədləri bioloji müxtəlifliyin qorunması, onun komponentlərinin davamlı istifadəsi və genetik ehtiyatlardan istifadə nəticəsində yaranan faydaların ədalətli şəkildə bölüşdürülməsi, o cümlədən genetik ehtiyatlara lazımi çıxışın təmin edilməsi, bu cür resurslara və texnologiyaya dair bütün hüquqlar nəzərə alınmaqla müvafiq texnologiyalar, habelə adekvat maliyyələşdirmə yolu ilə onların müvafiq şəkildə ötürülməsidir. Konvensiya 5 iyun 1992-ci ildə imzalanmaq üçün açılıb və 29 dekabr 1993-cü ildə qüvvəyə minib.**

## Ölkəmizin "yaşıl" gündəliyi

Ötən ilin dekabrında Dubayda keçirilən COP28 çərçivəsində BMT-nin növbəti iqlim konfransına ev sahibliyi hüququnun Azərbaycana verilməsi ölkəmizin beynəlxalq nüfuzunun artması baxımından böyük əhəmiyyət daşıyır. Xatırladaq ki, 2023-cü il dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü il üçün COP29-a ev sahibi kimi müəyyənləşdirib və 200-ə yaxın ölkənin yekdil qərarı ilə respublikamız BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibi seçilib. Enerji keçidi və səmərəliliyinin ölkələrin siyasi və iqtisadi gündəliyinin prioritet məsələsinə çevrildiyi bir məqamda bu, çox mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasında söylədiyi nitqində bildirdiyi kimi, COP29-un Azərbaycanda keçirilməsi bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Ölkəmizin xeyli sayda qonağın iştirak edəcəyi bu mötəbər tədbirə ev sahibliyi etməsi Vətən müharibəsində Zəfərindən sonra yeni dövrə qədəm qoyan Azərbaycanın tarixində çox mühüm rol oynayacaq və təbii ki, özü ilə bərabər yeniliklər gətirəcək. Ölkəmizin dünyada nüfuzu daha da artacaq.

Respublikamızın COP29-a ev sahibliyi hüququnun yekdilliklə dəstəklənməsi, hazırda isə Bioloji Müxtəliflik haqqında Konvensiyasının sayca 17-ci Tərəflər Konfransının keçirilməsi üçün münasib məkanlardan biri qismində müzakirələrə başlanılması və namizədliyinin irəli sürülməsi bilavasitə ölkəmizin reallıqları ilə bağlıdır. Burada ölkədəki möhkəm daxili sabitlik, davamlı inkişaf, multikultural cəmiyyət, dövlətin siyasi iradəsi kimi beynəlxalq ictimaiyyətin qərarına təsir göstərə biləcək amilləri sadalamaq mümkündür. Ən əsas məqamlardan biri isə heç şübhəsiz ki, ölkəmizin "yaşıl" gündəliyidir. Qeyd edək ki, respublikamızın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının milli prioritetlərindən biri də məhz "Təmiz ətraf mühitə və yaşıl inkişafa malik ölkə" olmasına çalışmaqdır. Eyni zamanda, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik İli" elan edilməsi də təsadüfi deyildir. Bu, ölkəmizdə ESC (Avropa Həmrəylik Korpusu) prinsiplərinin - ətraf mühitin qorunması, sosial məsuliyyət və şəffaf idarəetməyə keçidin diqqətdə saxlanıldığını bir daha sübut etməklə bərabər, COP29 kimi mötəbər tədbirə məsuliyyətlə hazırlaşmağımızı göz önündə sərgiləyir.




Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulması bir çox mətləbləri ortaya qoyur. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaltmaqdır. Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl" enerji zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Verilən məlumatlara görə, bütün istixana qazlarından qlobal istiləşmənin əsas mənbəyi (emissiyaların 60 faizindən çoxu) karbon qazıdır. Statistikaya görə, 2018-ci ildə Azərbaycanda havaya buraxılan karbon dioksidin miqdarı 34,704 milyon ton, adambaşına düşən həcmi 3,5 ton olub. Havaya buraxılan karbon dioksidin həcminə görə dünyada orta göstəricinin (4,968 ton) illik miqdarından daha aşağı səviyyədə qərarlaşan ölkəmiz bu baxımdan Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Özbəkistanla müqayisədə daha əlverişli mövqeyə malikdir.

Son illərdə Azərbaycan Prezidentinin tapşırığı ilə Bakı şəhərinin müxtəlif guşələrində geniş abadlıq-quruculuq işləri aparılır, yeni yaşıllıq zolaqları salınır. Ölkədə fəaliyyət göstərən ictimai təşkilatlar da yaşayış məhəllələrinin abadlaşdırılmasında fəal iştirak edirlər. Bakı şəhərinin müxtəlif rayonlarında ayrı-ayrı məhəllələrin abadlaşdırılmasında fəal iştirak edən ictimai təşkilatlardan biri də Heydər Əliyev Fondudur. Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "IDEA" İctimai Birliyi tərəfindən uğurlu layihələr həyata keçirilir. Bunlardan küçə və parkların, məhəllə və binaların abadlaşdırılması, həyətlərin yenidən qurulması, yeni infrastrukturların yaradılması, yaşıllıqların salınması məqsədilə həyata keçirilən "Abad həyət" layihəsi xüsusilə diqqətəlayiqdir. Bundan başqa, Gənclər Fondunun maliyyə dəstəyi və "ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı ilə "Yaşıl gələcək", "Xəzəri qoruyaq-2024" mövzusundakı layihələr ekoloji tarazlığın qorunmasına xidmət edir.

Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) həyata keçirdiyi "Yer saatı" adlı beynəlxalq tədbir hər il martın son şənbə günündə bizim ölkəmizdə də qeyd edilir. "Yer saatı" təbiətə qayğıkeş münasibətin, planetimizin məhdud resurslarına qayğının rəmzi olaraq bəşəriyyət tarixində ən kütləvi ictimai aksiyadır. 2011-ci il martın 26-da Bakının rəmzi olan Qız qalasında və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda bir saat ərzində işıqlar söndürülüb və beləliklə, Azərbaycan bu qlobal kampaniyanı dəstəkləyən ölkələrin sırasına daxil olub. Qeyd edək ki, ilk belə aksiya 2007-ci ildə Sidneydə keçirilib.

## Azərbaycanın məsuliyyəti və imkanları

Beynəlxalq birliyin Azərbaycana böyük etimadı, həmçinin ölkəmizin özünü məsuliyyətli və ləyaqətli dövlət kimi təsdiqləməsi, eləcə də geniş imkanları ilə bağlıdır. COP29 BMT-nin ən irimiqyaslı tədbirlərindən biridir. Tədbir çərçivəsində ölkəmizə on minlərlə qonağın, o cümlədən də dövlət və hökumət başçılarının gələcəyi gözlənilir. Paytaxtımızda dünyanın ən aktual məsələlərindən olan iqlim çağırışları müzakirə olunacaq və bu sahədə gələcək fəaliyyətlərin yol xəritəsi müəyyənləşdiriləcək. Belə qlobal miqyaslı tədbirləri yalnız Azərbaycan kimi güclü potensialı olan dövlətlər keçirə bilərlər. COP29-a ev sahibliyi hüququnu öz üzərinə götürməklə respublikamız qlobal çağırışlara böyük həssaslıqla yanaşdığını bir daha ortaya qoyub. Ölkəmizin birmənalı mövqeyi belədir ki, qlobal təhdidlərə qarşı beynəlxalq həmrəylik gücləndirilməlidir. Hər bir ölkə milli səviyyədə uzlaşdırılmış fəaliyyətlər reallaşdırmaqla iqlim çağırışları ilə mübarizədə qlobal həmrəyliyə öz töhfəsini verə bilər və verməlidir.




Hazırda Azərbaycan COP29-a məsuliyyətli hazırlıq həyata keçirir. Bizim hazırlıq üçün cəmi bir il vaxtımız var idi. Vaxtın azlığına baxmayaraq, bütün hazırlıq işləri cədvəl üzrə həyata keçirilir. Hazırlıq məqsədilə COP29, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar olaraq 2024-cü il yanvarın 13-də dövlətimizin başçısının Sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb. COP29 Təşkilat Komitəsinin sədri Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, COP29-un müəyyən edilmiş sədri ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, COP29-un baş danışıqçısı isə xarici işlər nazirinin müavini Yalçın Rəfiyevdir. Komitənin tərkibində qadınlar və vətəndaş cəmiyyətinin üzvləri geniş şəkildə təmsil olunurlar. Təşkilat Komitəsinin indiyədək 6 iclası keçirilib və bu iclaslarda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər müzakirə edilərək müvafiq tapşırıqlar verilib.

*MÜBARİZ*



# Hüququn aliliyinin təmini...

## Azərbaycan bu kimi məsələlərdə heç bir zaman güzəştə getmir

**Hüquq və ya hüququn aliliyi anlayışı müasir dövrdə dünya miqyasında ən çox deqradasiyaya uğrayan istiqamətlərdən sayılır. Günügündən artan qlobal miqyaslı kataklizmlər, beynəlxalq müstəvidə hüquq anlayışına ikili standartlarla münasibət, eyni motivli hüquq prosedurlarına fərqli baxış bu fikri təsdiqləyir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etdirdiyi işğal siyasəti bunun bariz misallarındandır - 20 faizə yaxın torpağı işğal altında olan, bir milyona yaxın vətəndaşı öz doğma yurdunda yaşamaq hüququndan məhrum edilmiş, tarixi-dini, mədəni abidələri vandalizmin qurbanına çevrilmiş, ekosistemi dağıdılmış və nəhayət, separatizmdən əziyyət çəkən Azərbaycana münasibətdə beynəlxalq aləmin davranışı heç də hüquqi standartlara söykənmədi. Xüsusilə, Qərb dünyası 30 ilə yaxın işğalçı ilə işğala məruz qalan ölkə arasında bərabərlik qoymağa çalışdı - baxmayaraq ki, BMT Təhlükəsizlik Şurası kimi dünyanın ən nüfuzlu qurumu işğal altında olan Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad edilməsi ilə bağlı 4 qətnamə qəbul etmişdi. Bu qətnamələrin icrasından boyun qaçıran Ermənistandan 30 ilə yaxın heç bir siyasi güc və ya dövlət bunun hesabını soruşmadı. 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri isə bu qeyri-hüquqi durumu aradan qaldırdı - ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olundu. Artıq regionda həm siyasi situasiya, həm də reallıqlar dəyişib - 30 il bölgəni təhdid altında saxlayan separatizm sona çatıb. Ən əsası isə ölkəmizin hüquqi qanunlarını pozan cinayətkarlar məsuliyyətə cəlb olunublar.**

## Prosedur başa çatıb

Bəli, Azərbaycanın suverenliyini bərpa edilməsi ilə yanaşı, həm də illərlə regionda separatizm yayan cinayətkarlar ədalət mühakiməsi qarşısına çıxarıldılar. Xatırladaq ki, 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda separatçı rejimə rəhbərlik etmiş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş "dövlət naziri" Ruben Vardanyanı həbs edərək Bakıya gətirib. Azərbaycan dövləti bu şəxslərin addımlarına hüquqi qiymət verilməsini istəyir - qanun çərçivəsində, hüquq müstəvisində onlar etdikləri cinayətlərin məsuliyyətini daşımalıdırlar. Çünki Azərbaycan hüquqi dövlətdir - bu gün Azərbaycanda baş verən tərəqqi proseslərinin, novatorluğun, islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı isə bütövlükdə sabit inkişafın əsas təməl prinsipidir. Bu mənada, bir sıra maddələrlə saxlanılan həmin şəxslərin məhkəmə prosesi də qanunvericiliyə uyğun aparılır - Azərbaycan dövləti özünün ali hüquq anlayışına hörmətini bir daha nümayiş etdirir, ən qatı cinayətkarların mühakimə edilmək və müdafiə olunmaq hüququnu tanıyır.

Yeri gəlmişkən, Azərbaycanın Baş prokuroru Kamran Əliyev həbs edilən erməni separatçıları ilə bağlı cinayət işinin istintaqının yekunlaşdığını bildirib. KİV-ə açıqlamasında Baş prokuror istintaq hərəkətlərinin aparılması üzrə prosedurların başa çatdığını deyib: "Artıq cinayət işinin materialları ilə tanışolma mərhələsidir. Bu mərhələ kifayət qədər uzun vaxt tələb edir. Çünki zərərçəkmişlər həddindən artıq çoxdur. Eyni zamanda təqsirləndirilən şəxslərin hüquqları beynəlxalq konvensiyalara və milli qanunvericiliyin tələblərinə uyğun olaraq təmin olunur. Onların hər birinin bir neçə vəkili var. Onların hüququ var ki, materiallarla tanış olsunlar. Çünki ittihamlar kifayət qədər ciddidir. Separatçılıqla, o cümlədən bizim tarixi-mədəni abidələrin məhvi ilə bağlı ittihamlardır", - deyə o bildirib. K. Əliyev vurğulayıb ki, bu proseslər tamamlandıqdan sonra iş baxılması üçün məhkəməyə təqdim olunacaq.

Bu amil həm də ölkəmizin hüquqi dövlət prinsiplərinin nə qədər dərin olduğunu göstərir. Azərbaycan bu kimi məsələlərdə heç bir zaman güzəştə getmir - qanun Azərbaycan dövlətində yeganə istinad mənbəyidir. Biz hər zaman bəyan edirik ki, hüquqi yanaşmalar nəinki subyekt olaraq bəzi xalqlara və ya dövlətlərə xitabən, ümumilikdə, beynəlxalq qanunvericiliyə və prosedurlara uyğun aparılmalı, bu norma mütləq şəkildə gözlənilməlidir.




## Ermənistan kütləvi məzarlıqlarla bağlı məlumatları vermir...

II Qarabağ müharibəsindəki qələbə I Qarabağ müharibəsində baş verən ədalətsizliklərin, hüquqsuzluqların üzərinə də işıq salır - Ermənistanın I Qarabağ müharibəsi dövründə qeyri-qanuni hərəkətləri, dinc və günahsız insanlara qarşı qətliamları, müharibə cinayətləri, tarixi abidələrimizi dağıtmaları cavabsız qalmamalıdır. Azərbaycan tərəfində bununla bağlı da hüquqi proseslər başladılıb və artıq müvafiq beynəlxalq instansiyalara müraciətlər edilib.

Baş prokuror Kamran Əliyev onu da bildirib ki, Azərbaycanın Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımızla əlaqədar Ermənistandan təzminat tələbi ilə bağlı qaldırdığı iddialar üzrə proseslər də beynəlxalq hüquqi çərçivədə həyata keçirilir: "Burada həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə bizi təzminatdan daha çox itkin düşmüş şəxslərin taleyi maraqlandırır. Bu sahədə həm Dövlət Təhlükəsizliyi Xidməti, həm də Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının əməkdaşları ilə birgə tədbirlər həyata keçirilir. Zaman-zaman həmin itkin düşmüş şəxslərin qalıqlarının yeri müəyyən olunur, yaxınlarına təhvil verilir və adət-ənənələrə uyğun olaraq dəfn edilməsi təmin olunur. Təəssüflər olsun ki, Ermənistan tərəfi həmin kütləvi məzarlıqlarla bağlı məlumatları vermir. Ona görə də çətinliklə də olsa bu proses həyata keçirilir. Bu sahədə xeyli irəliləyiş əldə olunub".

Qeyd edək ki, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Ərazi bütövlüyümüz bərpa olunandan sonra işğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlarda tapılan qalıqlar eyniləşdirilib. İlk olaraq Fərrux yüksəkliyində, Daşaltı kəndində, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqlar aşkar edildi. Daha sonra, Kəlbəcərin Başlıbel kəndində, Şuşa türməsinin ərazisində, Ağdam rayonunda, Kəlbəcərdə də belə məzarlıqlar üzə çıxarıldı. Bir müddət öncə isə Xocalı soyqırımının qurbanlarının bir hissəsinin kütləvi basdırıldığı ərazilər aşkarlandı. Ümumiyyətlə, hazırkı vaxtadək 18 kütləvi məzarlıq aşkar edilib, həmin kütləvi məzarlıqlardan ən azı 172 nəfərə məxsus meyit qalıqları aşkar edilib.

## Hökm İranın Ali Məhkəməsi tərəfindən təsdiq olunmalıdır

Beləliklə, Azərbaycanın yaratdığı hüquqi mənzərə göz önündədir - həm ölkə daxilində hüquqi prosedurların qanunauyğun səviyyədə inkişafı təmin edilir, həm də beynəlxalq müstəvidə öz hüquqlarımızı qoruyuruq. Bir sıra xarici dövlətlərlə imzalanan müvafiq müqavilələrə əsasən həmin ölkələrdə saxlanılan cinayətkarlar ölkəmizə təhvil verilir və ya Azərbaycan dövlətinə qarşı cinayətdə günahlandırılan şəxslər öz cəzasını alır. Ötən ilin yanvarında İrandakı Azərbaycan səfirliyinə hücum edən şəxsin məhkəməsi də başa çatıb - KİV-lərin yaydığı məlumata görə, bir soydaşımızın ölümü, ikisinin yaralanması ilə nəticələnən terror aktını törətmiş Yasin Hüseynzadə barəsində ölüm hökmü çıxarılıb. Bununla bağlı açıqlamasında Baş prokuror Kamran Əliyev bildirib ki, Yasin Hüseynzadə barəsində hökmün icrası müəyyən prosedurlar tələb edir. "Biz İran tərəfi ilə bu istiqamətdə əlaqələrimizi davam etdiririk. Burada sadəcə prosessual məsələlərdən söhbət gedir. Bilirsiniz ki, birinci instansiya məhkəməsinin hökmü İranın Ali Məhkəməsi tərəfindən təsdiq olunmalıdır. Prosessual qayda odur ki, bu prosedur həyata keçiriləndən sonra hökm icraya yönəldiləcək", - o deyib.

Azərbaycan hər zaman hüququn aliliyinə inanıb - bu dəfə də inanırıq ki, İranın müvafiq instansiyaları bu terror aktını törədən cinayətkarın layiqli cəzasını alması ilə bağlı qərarın icrasını təsdiqləyəcək.

*P.SADAYOĞLU*

# “Zəfər tariximizin fatehləri”

Oktyabrın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Nərimanov rayon təşkilatının birgə təşkilatçılığı ilə partiyanın Veteranlar Şurasının üzvü Zərifə Quliyevanın “Zəfər tariximizin fatehləri” adlı kitabının təqdimat mərasimi keçirilib.

YAP Nərimanov rayon təşkilatının qərargahında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi zəfərlərdən bəhs edib, eləcə də təqdim olunan kitabın əhəmiyyətindən danışıb.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə deyib ki, hazırda Azərbaycan inkişafının ən möhtəşəm dövrünü yaşayır. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Qarabağ Zəfəri nəticəsində özünün güclü və qüdrətli dövlət olduğunu bütün dünyaya nümayiş etdirdi: “Bu müharibə xalqımızın öz Vətənini müdafiə etmək əzmində olduğunu göstərdi. Qələbənin qazanılmasında əsas amillər sırasında ölkəmizin iqtisadi və hərbi gücü xüsusi vurğulanmalıdır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qazanılan tarixi Zəfər məhz bu siyasətin məntiqi nəticəsidir”.






YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Zərifə Quliyevanın müəllifi olduğu “Zəfər tariximizin fatehləri” kitabında xalqımızın zəfər yürüşü geniş əksini tapıb. Onun sözlərinə görə, kitabda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərindən də geniş bəhs olunur.

Tədbirdə, həmçinin YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, kitabın redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Əliqismət Bədəlov, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun politologiya və siyasi sosialogiya şöbəsinin müdiri, professor Rəna Mirzəzadə, YAP Veteranlar Şurasının üzvləri - Tahir Quliyev, professor Adilə Abbasova, Əməkdar jurnalist Tahir Məmmədov və şairə-publisist Nəsibə İsrafilqızı çıxış edərək Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasının tariximizə qızıl hərflərlə yazıldığını vurğulayıblar.

Qeyd ediblər ki, kitabda müəllifin Ulu Öndər Heydər Əliyev və akademik Zərifə xanım Əliyeva haqqında yazılmış məqalələri, son illərdə müxtəlif media orqanlarında dərc olunan şərhləri və müsahibələri toplanıb. Nəşrdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda apardığı haqq mübarizəsindən, bu müqəddəs amallar uğrunda xalqımızın milli birlik və həmrəylik nümayiş etdirməsindən, xüsusilə dünya azərbaycanlılarının dövlət başçımızın ətrafında sıx birləşməsindən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın humanizm meyarına əsaslanan fəaliyyətindən bəhs edilib. Diqqətə çatdırılıb ki, kitab milli-mənəvi dəyərlərin təbliğ olunması, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması istiqamətində aparılan işlərə böyük töhfələr verəcəkdir.

Kitabın müəllifi, YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri Zərifə Quliyeva çıxış edərək deyilən xoş sözlərə görə və kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkür edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlərdən bəhs edib. Vurğulayıb ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri nəticəsində azad edilmiş ərazilərimiz qısa zamanda dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# İxracın və investisiyaların yeni ünvanı

## Azərbaycan körfəz ölkələri ilə iqtisadi sahədə əlaqələrin coğrafiyasını genişləndirir

Azərbaycanla Körfəz ölkələri arasında siyasi, iqtisadi, humanitar əlaqələr son illərdə intensivləşərək yüksək səviyyəyə qalxıb. Respublikamızın Körfəz Əməkdaşlığı Şurasında (KƏŞ) yer almasından sonra əlaqələrin dinamikası daha da genişlənib. Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Omandan ibarət Körfəz Əməkdaşlıq Şurası Azərbaycanla ikitərəfli və çoxtərəfli əlaqələri artırmaq üçün müxtəlif siyasi-iqtisadi qərarlar qəbul edib. Ölkəmizdə səfərdə olan Körfəz Əməkdaşlıq Şurasının baş katibinin və nümayəndə heyətinin Azərbaycanın dövlət başçısı səviyyəsində qəbul edilməsi bu region ölkələri ilə münasibətlərin strateji gündəliyini daha da zənginləşdirib.

KƏŞ ölkələri SPECA-nın Zirvə görüşündə iştirak edərək Azərbaycanla çoxşaxəli proqamların həyata keçirilməsi imkanlarını müzakirə edib, birgə investisiyaların yatırılması üçün real, təsirli addımlar atılmasının vacibliyini diqqətə çatdırıb. Həmçinin Mərkəzi Asiya regionu ölkələri ilə KƏŞ-in təmaslarında yaxınlaşmanın artması, eləcə də Türk Dövlətləri Təşkilatı ilə inteqrasiya prosesinin əlaqələndirilmiş platformaya istiqamətlənməsi böyük perspektivlərdən xəbər verir.

### KƏŞ ölkələrindən Azərbaycana 4 milyard dollarlıq sərmayə...

Bu dayanıqlı iqtisadi ritm və dinamika çərçivəsində Azərbaycanın KƏŞ ölkələri ilə ticarət mübadiləsinin həcmi də son illərdə artıb. Ötən il əmtəə dövriyyəsində əhəmiyyətli dinamika qeydə alınıb və mal mübadiləsi 175 milyon dollara çatıb.

2024-cü ilin yanvar-avqust aylarında Azərbaycan ilə Körfəz Əməkdaşlıq Şurasına (KƏŞ) üzv ölkələr arasında ticarət dövriyyəsi 28 faiz artıb. Eyni zamanda, tərəflərin investisiya qoyuluşlarında da artımlar müşahidə edilir, hazırda KƏŞ ölkələri tərəfindən Azərbaycan iqtisadiyyatına yatırılmış investisiyaların həcmi 4 milyard dollardan çoxdur. Ancaq həm ticarətdə, həm də sərmayələrdə imkanlar mövcud potensialdan qat-qat böyükdür.

Bir neçə gün əvvəl Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı ilə Bakıda keçirilən Azərbaycan-Körfəz Əməkdaşlıq Şurasına (KƏŞ) üzv ölkələrin İqtisadi forumunda isə müxtəlif sərmayə sahələri üzrə layihələrə start verilməsinin zərurliyi bildirilib. Tərəflər bununla bağlı yekun saziş imzalayıb ki, bu, sərmayə təşviqləri istiqamətində çevik və praktiki addımlar üçün hüquqi-iqtisai zəmin sayıla bilər.Belə ki, AZPROMO ilə KƏŞ Ticarət Palataları Federasiyası (FGCCC) arasında qarşılıqlı əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumuna əsasən, AZPROMO və KƏŞ arasında iqtisadi əlaqələrin inkişafı üçün qarşılıqlı fəaliyyətin təşviqi və investisiyaların cəlb olunması, ticarət missiyalarının təşkil yolu ilə iqtisadi dövriyyələrin artırılması nəzərdə tutulur.

Son illərdə KƏŞ ölkələrindən Azər-




baycan gələn turistlərin sayında isə rekord nəticələr qeyd alınıb. 2024-cü ilin yanvar-avqust aylarında Azərbaycana 183 ölkədən 1 milyon 748 min nəfər gəlib ki, onların böyük bir qismi körfəz ölkələrinin vətəndaşlarıdır. 2023-cü ilin eyni dövrü ilə müqayisədə bu regiondan gələn turistlərin sayı 34,5 faiz artıb. Həmin turistlərin sırasında kiçik və orta biznesin nümayəndələrinin olması isə Azərbaycandakı biznes iqlimi ilə daha yaxından tanış olmaq imkanı verir.

### “ACWA Power” və “Masdar”ın sərmayə liderliyi...

Məhz bu imkanları nəzərə alaraq daha irihəcmli sərmayə portfelləri müəyyənləşib. KƏŞ ölkələrindən Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Səudiyyə Ərəbistanı, Qətər Azərbaycanın hidrogen və bərpaolunan enerji sektorlarına böyükhəcmli investisiyalar qoymaq niyyətindədir. Yeni sərmayə təşviqi siyasətinə əsasən, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti Azərbaycanda 240 meqavat gücə malik külək elektrik stansiyasının yaradılmasına 290 milyon dollar sərmayə qoyub. Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb. “Masdar”la 3 ay əvvəl imzalanmış sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpa olunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər.

Bundan başqa, “Masdar”la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.

Göründüyü kimi KƏŞ ölkələri Azərbaycanın əsas iqtisadi strateji tərəfdaşına çevrilib və ölkəmizdə icra edəcəyi layihələr həm də iqtisadi və sosial məzmun kəsb edir. Bu cür layihələr iqtisadiyyatın sənaye sektorunun inkişafı və infrastrukturlar üçün xammal və ehtiyatlar sahəsində canlanmasnı təmin edəcək, yüzlərlə işçinin layihələrə cəlb olunması isə onların sosial rifahına töhfələr verəcək.

### Qarabağ və Şərqi-Zəngəzura “yaşıl investisiyalar”..

Məlum olduğu kimi Azərbaycanın “yaşıl enerji” strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur. Ortamüddətli inkişaf konsepsiyasında bu ərazilər Yaşıl Enerji Zonası elan edilib və müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Həmin strateji yanaşmaya əsasən, Yaşıl Enerji Zonasında enerji istehsalı üçün bir neçə mənbə müəyyən edilib. Bunlar bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, elektrik nəqliyyat vasitələrindən istifadə, günəş panellərinin qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında Günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpa olunan enerji texnologiyalarının tətbiqi, ağıllı enerji idarəetmə kimi modellərdir.

KƏŞ ölkələri, xüsusilə də “ACWA Power” və “Masdar” bu ərazilərdəki “yaşıl enerji”yə böyük maraq göstərir və yaxın vaxtlarda azad edilmiş ərazilərin bərpaolunan enerji mənbələrinin istismarına dair KƏŞ ölkələri ilə sazişlərin imzalanması ehtimal edilir. Bir neçə ay əvvəl bir missiya ilə ölkəmizdə olan KƏŞ dövlətlərinin biznes icması Azərbaycanda formalaşmış əlverişli biznes mühiti və xarici investorlar üçün yaradılmış cəlbedici imkanlarla tanış olduqdan sonra investisiya planlarını hazırlayacaqlarını bəyan edib. Xüsusilə də sənaye texnologiyaları parklarına, azad edilmiş ərazilərdəki müxətlif biznes sektorlara tətbiq edilən vergi və gömrük güzəştləri fonunda texnologiyalara, bərpa olunan enerjiyə sərmayə yatırımları onlar üçün daha cəlbedicidir. Nəzərə alsaq ki, Qarabağ və Şərqi-Zəngəzur hazırda azad biznes üçün cənnət zonadır, bu baxımdam KƏŞ ölkələrinin bu bölgədə fəaliyyət imkanları daha cəlbedici görünür.

Hazırda respublikamızın mövcud tranzit-ligistika imkanlarının genişlənməsi, bir sıra region dövlətləri ilə çoxşaxəli tranzit platforması qurması KƏŞ-ə üzv ölkələrlə əməkdaşlığın coğrafiyasını da inkişaf etdirməyə imkan verir. Birgə fəaliyyət kursu aparıcı iqtisadi sektorları, o cümlədən energetika, bərpa olunan enerji, nəqliyyat, logistika, turizm, xidmət sahələrini inkişaf etdirmək üçün münbit şərait yaradır.

***ELBRUS***

# Yeni biznes qiymətləndirməsi

## Dünya Bankı “Business Ready” hesabatını açıqlayacaq

Dünya Bankının (DB) oktyabr ayında ənənəvi “Doing Business” hesabatının əvəzində daha təkmil və yeni meyarlara əsaslanan “Business Ready” (B-Ready) hesabatının dərc olunması  nəzərdə tutulur. Yeni layihədə müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın biznes sektoruna birbaşa və dolayısı ilə aidiyyəti olan sahələrin, xüsusilə də vergi, gömrük, ticarət, maliyyə, biznes mühiti və s. indikatorlar üzrə qiymətləndirmələr əsasında yekun rəy veriləcək. DB-nin yeni metodologiyasına əsasən, həmin ölkələrin beynəlxalq biznes mövqeyi müəyyənləşəcək.

### “Doing Business”də islahatçı ölkə...

Azərbaycan neçə illərdir ki, Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində biznes sahəsində islahatları davam etdirir, DB-nin təklif və tövsiyələri əsasında biznes mühitinin yaxşılaşdırılmasına təsir edən sahələr üzrə qabaqcıl təcrübələri tətbiq edir. Bu islahatların mühüm nəticələrindən biri kimi, Azərbaycan “Doing Business” hesabatlarında son illərdə ən yaxşı islahatçı ölkələr sırasında yer alıb. Ölkəmiz “Biznesə başlama”, “Mülkiyyətin qeydiyyatı”, “İnvestorların hüquqlarının müdafiəsi”, “Vergilərin ödənişi” indeksləri üzrə ən mütərəqqi islahatlar həyata keçirib. 2018-ci ildən sonra vergi islahatları hesabatda Azərbaycanın bir neçə indeks üzrə irəliləməsində xüsusi rol oynayıb. Belə ki, “Doing Business 2020” hesabatında birbaşa vergi məsələləri ilə bağlı olan “Biznesə başlama” və  “Vergilərin ödənişi” indeksləri üzrə Azərbaycan ilk 10 ölkə qrupunda yer alıb. Respublikamız “Biznesə başlama” üzrə dünya sıralamasında 9-cu yerdə, “Vergilərin ödənilməsi” indikatoru üzrə 28-ci yerdə qərarlaşıb.

### “Biznesə daxilolma” adlı işçi qrupu tərəfindən görülən işlər...

Qeyd edilən nailiyyətlər Azərbaycanın “Doing Business” hesabatında biznes islahatları üzrə apardığı işlərin nəticəsidir. İndi isə Dünya Bankı biznes qiymətləndirməsini tamamilə yeni meyarlar və daha dərin alt-indekslər üzrə həyata keçirdiyindən Azərbaycanın da üzərinə bir sıra vəzifələr düşür. “Doing Business”i əvəz edəcək “Business Ready” hesabatı investisiya və biznes mühitinin qiymətləndirilməsinə daha şəffaf və balanslaşdırılmış yanaşmanı təmin edəcək. Yeni hesabat biznesə başlamaq üçün əsas institusional amilləri, vergi yükü və vergi dərəcələri, biznesin fəaliyyətində vergiqoymanın təsirləri, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, bazar rəqabəti, mübahisələrin həlli kimi əsas alt-indekslər ölçüləcək. Bu reallıqlar nəzərə alınaraq müasir çağırışlar fonunda ötən dövr ərzində “Əlverişli biznes mühiti” adlı yeni layihə çərçivəsində islahatları və iqtisadi təşəbbüsləri davam etdirilib.

“Biznesə daxilolma” adlı işçi qrupu tərəfindən biznesin qeydiyyatının bütün sahələrdə daha da asanlaşdırılması, xüsusilə də xarici hüquqi şəxslərin ölkəmizdə qeydiyyatdan keçirilməsi proseslərinin səmərəliliyinin təmin edilməsi, paralel olaraq onların təhlükəsizliyinin təmin edilməsi, biznes sektorunun sosial maraqlarının qorunması, kommunal xidmətlər, işçi qüvvəsi, biznes mübahisələri və s. sahələrdə sadələşdirilmiş prosedurların hazırlanması nəzərdə tutulur. Həmçinin müəssisələrin fəaliyyətinin çevikliyinin təmin olunması və sosial maraqlarının qorunması, xarici mənşəli beynəlxalq sənədlərin informasiya sistemlərində elektron rəsmiləşdirilməsinin asanlaşdırılması və “Elektron notariat” informasiya sisteminin tətbiqi, digər elektron infrastrukturların çevikliyinin artırılması islahat təşəbbüsləri sırasında yer alır.

### Rəqabət Məcəlləsi biznes mühiti üçün yeni imkanlar açır

DB-nin tövsiyələrinə uyğun olaraq, son bir Rəqabət Məcəlləsi biznes mühiti üçün yeni imkanlar açır ildə ölkədə biznesin fəaliyyətinin genişlənməsi və azad rəqabətin təmin edilməsi istiqamətində də mühüm addımlar atılıb. 2024-cü il iyulun 1-dən qüvvəyə minən Rəqabət Mə-




cəlləsi azad bazar institutlarının fəaliyyətinə nəzarətlə bağlı müddəaları özündə  əks etdirir. Sənəddə rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması hallarına qarşı mübarizə, rəqabəti məhdudlaşdıran müqavilələrə dair tələblər, təsərrüfat subyektlərinin bazar payı, haqsız rəqabət, iqtisadi təmərküzləşmələr, dövlət orqanları tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsi və təbii inhisarların fəaliyyətlərinin tənzimlənməsi ilə bağlı müddəalar öz əksini tapıb.

Rəqabət Məcəlləsi ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb etməklə, ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir, istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını təşviq edir.

Məcəllə əsas etibarilə kiçik və orta biznes subyektlərinin bazara girişinin və bazarda inkişafının qarşısını alan maneələrin ortadan qaldırılmasına xidmət edir. İlk növbədə biznesin maraqlarının müdafiəsi ilə bağlı əhəmiyyətli detallar öz əksini tapıb ki, bura ədalətli rəqabət mühitinin təmin olunması, inhisarçılığa qarşı təsirli mübarizə mexanizmlərinin tətbiqi, haqsız rəqabət hallarının qarşısının alınması ilə bağlı hədəflər daxildir.

Bütün bu meyarlar və digər indikatorlar üzrə görülmüş işlər yeni dərc ediləcək “Business Ready” hesabatında Azərbaycanın islahatçı ölkələr qrupunda qalmasına zəmin yaradır.

***ELBRUS***

# Rəqəmsal dəmir yolu

## Asiya Bankının Azərbaycana maliyyə dəstəyi Orta Dəhlizdə və Rəqəmsal Ticarət Koridorunda mövqeyimizi gücləndirəcək

Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda dəmir yollarının rəqəmsallaşdırılması ilə bağlı layihələrə 47 milyon dollar kredit ayırmağa razılıq verib. Bankla "Azərbaycan Dəmir Yolları" QSC arasında əldə edilmiş kredit sazişinə əsasən, ayrılacaq vəsaitlər ölkəmizdə dəmir yolu sisteminin rəqəmsallaşdırılmasına, dəmir yolu şəbəkələrinin təhlükəsizliyinin və etibarlılığının və səmərəliliyinin artırılmasına kömək edəcək. Həmçinin kredit xətti dəmir yolu nəqliyyatının idarə edilməsi, aktivlər, investisiya planlaşdırması, müştəri məlumatlarının emalı sisteminin və korporativ funksiyaların rəqəmsallaşdırılmasını dəstəkləməyə yönələcək.

### 25 illik maliyyə etimadına söykənən əməkdaşlıq...

Asiya Bankı 25 ilə yaxındır ki, ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən yaxın tərəfdaş kimi təmsil olunmaqdadır. 2024-cü il 1 aprel tarixinə Asiya İnkişaf Bankı ilə Azərbaycan Respublikası arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində 4,2 milyard dollar həcmində maliyyələşdirmə proqramları həyata keçirilib. Həmin layihələr sırasında dəmir yolu infrastrukturunun müasirləşdirilməsi də xüsusi yer tutur. AİB Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün ölkəmizə 150 milyon dollar kredit ayırıb, layihənin başa çatdırılması üçün əlavə tələb olunan 131,5 milyon dollar məbləğində maliyyələşməni təmin edib. Bununla yanaşı, dəmir yolu sektorunun maliyyə davamlılığının artırılması üzrə həyata keçirilən islahatların dəstəklənməsi məqsədilə 2017-ci ildə bank tərəfindən "Dəmir yolu sektorunun inkişafı proqramı" çərçivəsində 250 milyon dollar məbləğində kredit vəsaitləri ayrılıb.

2024-2026-cı illər ərzində AİB-lə Azərbaycan Respublikası arasında əməkdaşlıq əsasən bərpaolunan enerji və "yaşıl nəqliyyat" sahələrini əhatə edəcəkdir. Bu istiqamətdə, AİB tərəfindən növbəti illər ərzində regional nəqliyyat sistemləri vasitəsilə regional əməkdaşlığın gücləndirilməsi, habelə "Şimal-Cənub" və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında hökumətə dəstək verilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin cari il iyunun 27-də Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava ilə görüşündə əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və yeni səhifənin açılması üçün yaxşı imkanlar yarandığı vurğulanıb. M.Asakava tərəfindən qarşıda yeni hədəf və layihələr sırasında AİB-in müasir nəqliyyat qovşaqlarının maliyyələşdirilməsində əsas maliyyə dayağı olacağı diqqətə çatdırılıb.

### Dəmir yolunda rəqəmsallaşma nədir?




Müasir dövrdə nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyaların tətbiqi və infrastrukturun elektronlaşdırılması dünya ölkələrinin qarşısında duran əsas çağırışlardandır. Rəqəmsallaşma müasir İT imkanlarından istifadə etməklə məlumatların daha dəqiqliyi, müştərilərin vaxtına qənaət edilməsi, ölkələrarası inteqrasiya nəticəsində məlumatların daha sürətli və dəqiq ötürülməsi, qatarların onlayn izlənilməsi və s. kimi funksionallığa şərait yaradır. Həmçinin əməliyyat səmərəliliyinin, rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyət kəsb edir. Qabaqcıl rəqəmsal texnologiyalardan istifadə həm də dəmir yolu nəqliyyatında kibertəhlükəsizliyin yüksək səviyyədə təmin olunması baxımından da xüsusi əhəmiyyətə malikdir.




Azərbaycanın regional tranzit dəhlizlərindəki rolunun artması rəqəmsallaşma ilə bağlı tədbirləri də həyata keçirməsini zəruri edir. Bunun üçün zəruri infrastrukturların yaradılması, fiberoptik şəbəkə sisteminin təmin edilməsi əsas şərtlərdən biridir. Asiya Bankının Mərkəzi və Qərbi Asiya üzrə regional direktoru Yevgeni Jukov bildirib ki, modernləşdirilmiş və rəqəmsal dəmir yolu sistemi Şərqi və Mərkəzi Asiya iqtisadiyyatlarının Qafqaz və Avropa ilə əlaqələndirilməsində mühüm rol oynayır. Bu kontekstdə rəqəmsal transformasiya bu dəhlizdə Azərbaycanın rolunu da dəstəkləyəcək.

Bir neçə gün əvvəl Pekində keçirilən Forumda da Azərbaycanın nəqliyyat-logistika və tranzit imkanlarından bəhs edilərkən ölkəmizin Avropa, Mərkəzi Asiya və Çin arasında ən qısa və təhlükəsiz tranzit ölkəsi kimi mövqeyi xüsusi vurğulanıb, bu qlobal nəqliyyat potensialının artırılması üçün yeni innovativ səylərin birləşdirilməsinin vacibliyinə toxunulub.

### Çin və AİB-in COP29-a rəqəmsal dəstəyi...

Forumda qeyd edilib ki, Azərbaycan Orta Dəhlizdə fəallığını artırmaq üçün öz nəqliyyat infrastrukturunu tam yeniləşdirməkdədir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücünün artırılması, yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsi Orta Dəhlizin perspektiv güc balansına hesablanıb. Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturlarının şaxələndirilməsi və modernləşdirilməsi və digər innovativ həllər rəqəmsallaşma strategiyasının tərkib hissəsidir.

Ölkəmizdə kommunikasiyaların modernləşdirilməsi,"ağıllı texnologiyaların" tətbiqi Çin və AİB tərəfindən yüksək dəyərləndirilir və əlavə maliyyə dəstəyinin veriləcəyi istisna deyil. Xüsusilə də COP29 çərçivəsində Orta Dəhlizin dayanıqlı inkişafı və rəqəmsallaşdırılması üçün yeni strateji maliyyə hədəfləri çərçivəsində Azərbaycana zəruri köməkliyin göstəriləcəyi bildirilib.

Asiya Bankının kapital portfelinin böyük bir hissəsinin Çinin maliyyə donorluğu əsasında formalaşmasını nəzərə alsaq "Bir kəmər, bir yol"un müəllifi kimi rəsmi Pekinin Orta Dəhlizdəki rəqəmsal infrastrukturların müasirləşməsinə böyük marağını başa düşmək mümkündür. Bu baxımdan AİB-in dəhliz üzərində yerləşən ölkələrə, o cümlədən Azərbaycana dəmir yollarının rəqəmsallaşmasına dəstəyi həm də Orta Dəhlzinin inkişafına verilən dəstək kimi qəbul edilə bilər.

### "Maneəsiz Rəqəmsal Dəhliz" sistemi qurulacaq

Orta Dəhliz ailəsi üçün hazırda həlli vacib olan əsas məsələlərdən biri vahid rəqəmsal platformanın yaradılmasıdır. Bu platforma çərçivəsində bütün ölkələrin rəqəmsal sistemlərinin inteqrasiyası əsas prioritetlərdən biridir və layihədə iştirak edən ölkələrin hər biri rəqəmsallaşma ilə bağlı öz siyasətlərini birləşdirməyə çalışacaq. Bir müddət əvvəl həmin ekosistemin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridoru (Digital Trade Corridor) yaradılıb ki, Azərbaycan və Qazaxıstanın dəmir yollarının informasiya sistemləri gömrük modullu bu sistemə inteqrasiya olunub, Gürcüstan dəmir yollarının da sistemə qoşulması planlaşdırılır. Digər ölkələrin də növbəti ilə qədər bu rəqəmsal sistemə inteqrasiyasının başa çatdırılması və 2025-ci ildə "Maneəsiz Rəqəmsal Dəhliz"in işə salınması nəzərdə tutulur. Bu sistemin maliyyə təminatında Asiya İnkişaf Bankının aparıcı rol oynaması təqdir edilə bilər. Bu, həm də "Avrasiya Nəqliyyat Marşrutu"nun rəqəmsallaşmasında və "Maneəsiz Rəqəmsal Dəhliz" sisteminin qurulmasında Bankın iştirakçılığı deməkdir.

Beləliklə, AİB tərəfindən dəmir yolunun rəqəmsallaşdırılmasına verilən maliyyə dəstəyi nəqliyyat sektorunda davamlı əməkdaşlığın və Orta Dəhlizin əsas tranzit qovşaqlarının genişləndirilməsində ölkəmizə möhkəm maliyyə etimadının nümunəsi hesab edilə bilər. Asiya Bankı Azərbaycanın nəqliyyat sektorunun polad magistrallarının rəqəmsallaşdırılmasına donorluq etməklə, ölkəmizin qlobal tranzitlərdə müasir infrastrukturlar yaratmasına da kömək etmiş olur ki, bu da Orta Dəhliz konseptinin yeni prioritetlərindən birinin - rəqəmsallaşmanın genişlənməsinə imkan yaradacaq.

***ELBRUS CƏFƏRLİ***

---

# AŞPA-nın payız qürubu

Bəzi Avropa təsisatlarının Azərbaycana qarşı qərəzli yanaşmalar sərgiləmələri adi hala çevrilib. Bu sırada Avropa Şurası Parlament Assambleyası (AŞPA) da yer alır. Qurum anti-Azərbaycan mövqeyini növbəti dəfə oktyabrın 1-də başlayan və 4 gün davam edəcək payız sessiyasında da ortaya qoyub. Belə ki, ölkəmizdə demokratiya, qanunun aliliyi və insan hüquqlarının vəziyyəti ilə bağlı məsələ gündəliyə salınaraq təsdiqlənib. Bu təşəbbüs qurumda ənənəvi qaydada Azərbaycana qarşı əsassız iddialar səsləndirən və qərəzli hesabatlar hazırlayan, erməni lobbisinin danışan dilinə çevrilən deputatlardan gəlib. Halbuki, bəlli səbəblərdən Azərbaycan nümayəndə heyətinin qatılmadığı sessiyada ölkəmizlə bağlı müzakirələrin aparılması prosedur qaydalarına ziddir. Belə çıxır ki, qanunun aliliyindən danışan Avropa təsisatının özü qanunlara saymazlıq nümayiş etdirir. Bunu AŞPA-nın cari ilin yanvarında yaşanan qış yuxusundan sonra payız qürubu kimi də səciyyələndirmək mümkündür.

### Gürcü parlamentarinin etirazı

Anti-Azərbaycan mövqeyindən çıxış edən ermənipərəst deputatların istəyi ilə qeyd olunan məsələnin AŞPA-nın payız sessiyasının gündəliyinə sanması elə qurumun özündəcə etirazlarla qarşılanıb. O cümlədən Gürcüstanın AŞPA-dakı nümayəndə heyətinin sədri Givi Mikanadze buna etirazını bildirib. "Avropa Şurası Parlament Assambleyasının dəyərlərinə uyğun olaraq, hesab edirəm ki, bütün tərəflərin burada olması, iştirak etməsi və yeni seçilmiş parlamentlə birbaşa əlaqələrin qurulması imkanlarını müzakirə etmək lazımdır. Ona görə də mən verilən təklifi şübhə altına almaq istərdim", - deyən Gürcü Arzusu-Demokratik Gürcüstan Partiyasının üzvü, Gürcüstanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Givi Mikanadze AŞPA-nı dialoq prinsipinə riayət etməyə çağırıb.

Qeyd edək ki, AŞPA-da qurumun anti-Azərbaycan mövqeyindən çıxış etməsinə etirazlar ilk dəfə deyil ki, səslənir. Xatırladaq ki, qardaş Türkiyənin Xarici işlər Nazirliyi AŞPA-nın cari ilin yanvar ayında Azərbaycan nümayəndə heyətinin mandatını təsdiqləməməsinə kəskin münasibət ifadə olunan bəyanat yayıb. Belə etirazlar Macarıstandan, Serbiyadan və digər ölkələrdən, həmçinin ayrı-ayrı beynəlxalq təşkilatlardan gəlib. O cümlədən Gürcüstan parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Givi Mikanadze fevral ayında AŞPA sədri Teodoros Rusopulosa məktub ünvanlayıb. Məktubda AŞPA-nın sessiyası zamanı Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya edilməməsi barədə qəbul edilmiş qətnaməyə toxunulub. Bildirilib ki, bu cür sərt qərarlar AŞPA-nın Azərbaycanla və Cənubi Qafqazla gələcək münasibətləri, eləcə də AŞPA-nın özünün gələcəyi üçün mümkün olan mənfi nəticələr əsaslı şəkildə müzakirə edilmədən və təhlil olunmadan qəbul edilir. Bu isə narahatlıq doğurur. Məktubda vurğulanıb ki, bu qətnamə AŞPA çərçivəsində Azərbaycanla gələcək əməkdaşlığı və fikir mübadiləsini mümkünsüz edir. Bu, AŞPA-nın Cənubi Qafqaz regionu ilə qarşılıqlı fəaliyyətinə də mənfi təsir göstərəcək. "Üstəlik, bu qərar Avropa Şurasının dialoq və əməkdaşlıq üçün vacib platforma kimi missiyasına və nüfuzuna da xələl gətirir. Bu qətnamə Avropa Şurasının dəyər və öhdəliklərinin ruhuna zidd olmaqla yanaşı, daha çox qütbləşməyə səbəb ola və AŞPA-ya üzv dövlətlər arasında xüsusilə dəyərli olan etimad əsaslı əməkdaşlığa xələl gətirə bilər", - deyə məktubda qeyd edilib.




### Qərəzli qətnamənin tarixçəsi

Azərbaycanın AŞPA-da təmsilçiliyinin əsası 2001-ci ildə qoyulub. İkitərəfli münasibətlərdə zaman-zaman baş verən dalğalanmalara baxmayaraq, Azərbaycanın heç vaxt qurumla əlaqələrini kəsmək kimi bir niyyəti olmayıb. Lakin 2024-cü ilin yanvarında AŞPA-nın atdığı addım qırmızı xəttin keçilməsi olub və Azərbaycan da buna adekvat şəkildə cavab verib. Söhbət ondan gedir ki, Azərbaycanın ötən ilin sentyabrında keçirdiyi 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticəsində Qarabağda suverenliyini tam təmin etməsi AŞPA-da qısqanclıqla qarşılanıb və burada ölkəmizə qarşı sanksiya xarakterli qətnamə qəbul olunub. Təbii ki, bu da Azərbaycanın sərt reaksiyası ilə qarşılanıb. Məlum əməliyyatları Azərbaycan özünün ərazisində keçirib və bu, ölkəmizin suveren hüququdur. 44 günlük müharibə başa çatandan sonra Ermənistan üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəliklərdən yayınaraq ərazilərimizdə təxminən 15 minlik kontingentə malik olan hərbi hissələrini saxlamaqda davam edirdi. Bu, yeni təhlükələr və təhdidlər demək idi. Separatçılar tez-tez təxribatlara əl atır, mina terrorları törədir, sərvətlərimizi talamaqda davam edirdilər. Suveren dövlət olan Azərbaycan buna necə biganə qala bilərdi və qalmadı da. 23 saatlıq uğurlu antiterror tədbirlərinin nəticəsi olaraq ərazilərimizdə separatizmə, nəhayət ki, son qoyuldu. Azərbaycan antiterror tədbirlərini yüksək peşəkarlıqla həyata keçirdi, mülki infrastruktura və dinc insanlara ziyan vurulmadı, yalnız qanuni hərbi hədəflər nişan alındı. Burada AŞPA təmsilçilərini əndişələndirəcək bir yanlışlıq və yaxud beynəlxalq hüquq normalarının pozulması halı baş verməyib. O başqa məsələdir ki, AŞPA-nın Şvabe kimi qaranlıq keçmişi olan deputatları erməni lobbisinin dirijor çubuğu ilə hərəkət edirlər və bəlli mərkəzlərdən gələn sifarişləri yerinə yetirirlər.

Beləliklə, lokal xarakterli antiterror tədbirlərindən sonra otuz illik işğal dövründə azərbaycanlı qaçqınlara münasibətdə özünü "heç nəyi görməyən və eşitməyən" kimi aparan AŞPA sükutu pozub. Bəzi dövlətləri təmsil edən avropalı deputatlar yenə də insan haqları mövzusundan yapışıblar. Onlar yeri gəldi-gəlmədi Azərbaycanı guya Qarabağda erməni əhaliyə qarşı etnik təmizləmə aparmaqda və insan haqlarını pozmaqda ittiham edirlər. Qərəzin, ağ yalanın son həddidir bu! AŞPA-nın azərbaycanlı qaçqınlara münasibətdə nümayiş etdirdiyi loyallığı ilə postmüharibə dövründəki canfəşanlığı kəskin təzad təşkil edir. Azərbaycanlılar ev-eşiklərini güllə yağışı altında məcburi qaydada tərk etmişdilər. Onların bir çoxu həyatını itirdi, qarlı dağlarda soyuqdan, şaxtadan dondu. Ermənilər isə lokal xarakterli antiterror tədbirlərindən sonra Xankəndidən könüllü qaydada köç etdilər. Onlar ev əşyalarını, hətta mal-heyvan sürülərini də özləri ilə apardılar. Bu iki fərqli nümunəyə AŞPA-dan gələn tərs münasibətin məntiqi, daha doğrusu, məntiqsizliyi isə əsla başa düşülmür. Nə üçün biz bir halda AŞPA-nın loyallığının, susqunluğunun, digər halda isə qərəzçiliklə yoğrulan canıyananlığının şahidi olmalıyıq? Budurmu Qərb əxlaqı və demokratiyası? Bu qəbildən olan ikili yanaşmaların sonluğu olaraq cari il yanvarın 24-də AŞPA-nın plenar iclası Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin substantiv əsaslarla qəbul edilməməsinə çağıran qətnamənin lehinə səs verib.

### Suveren Azərbaycanın kəskin reaksiyası

Aərbaycan çoxvektorlu xarici siyasətində həmişə qarşılıqlı maraqları önə çəkir. Yəni ikitərəfli və çoxtərəfli münasibətlərdən bütün tərəflər fayda götürməlidir. Ölkəmiz bir qayda olaraq suverenlik və müstəqillik prinsiplərindən çıxış edir, özünün milli maraqlarını qətiyyətlə qoruyur. Öz növbəsində Azərbaycan AŞPA-nın məlum qərəzli yanaşmasına cavab olaraq qəti mövqe ortaya qoydu. Belə ki, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Azərbaycanın nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

Bundan başqa, Azərbaycan Xarici İşlər Nazirliyi Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin əleyhinə səs vermiş deputatları "arzuolunmaz şəxslər" siyahısına daxil edib."AŞPA-da nümayəndə heyətimizin mandatı bərpa olunmayanadək sözügedən şəxslər Azərbaycana gəldikləri təqdirdə, onlara ölkə ərazisinə daxil olmağa icazə verilməyəcək". Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Almaniya parlamentinin üzvü Frank Şvabenin Azərbaycan əleyhinə səsləndirdiyi fikirlərə dair cavabında deyib.

Azərbaycan beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərə sadiqdir və bu öhdəlikləri yaxşı anlayır. Bununla belə, ölkəmiz bu öhdəliklərin yalnız birtərəfli və ikili standartlar əsasında tətbiq edilməsi, onlardan sui-istifadə olunması, milli dövlətlərə təzyiq göstərilməsi halları ilə barışmayıb və bundan sonra da barışmayacaq. O cümlədən Azərbaycan AŞPA ilə münasibətlərin normal məcraya dönməsində maraqlıdır. Yetər ki, qarşı tərəf özünün qərəzli mövqeyindən geri çəkilsin və nümayəndə heyətimizin qurumda mandatının bərpasını təmin etsin.

***Mübariz FEYİZLİ***

# Muxtariyyat dövründə Azərbaycanın mədəni və elmi həyatının tərəqqisində Naxçıvanın rolu

**Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir**

**Heydər Əliyev**

Öz keşməkeşli tarixi, dahi şəxsiyyətləri ilə Şərqdə tanınan, dünyanın yaranışı qədər yaşı olan Naxçıvan torpağı əsrlərin sınağına sinə gərərək dövrümüzə qədər öz əzəmətini, vüqarını qorumuş, Türk torpağı olduğunu hifz edə bilmişdir. Bu torpağın həm öz sinələrini yağıya sipər edib Əlincələşən, həm qanı axıb Araza çevrilən, həm də Vətənin bir qarış torpağı uğrunda canından keçən övladları Vətənin dar günündə daşa çevrilib, şad günündə gülə dönüb bu torpağın sinəsində əbədiləşiblər.

Beləcə zamanın çətinliklərinə sinə gərə-gərə doğma Azərbaycanından ayrı düşən övlada çevrildi Naxçıvan torpağı. Bir övlad kimi özünün də, anası Azərbaycanın da qürurunu qorudu, muxtar dövlət oldu. Azərbaycandan məkanca ayrılsa da, mənən bir oldu, Naxçıvanım!

Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmiş, orta əsrlərdə Şərqin böyük elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış, dövlət sivilizasiyasına dəyərli töhfələr bəxş etmişdir. Azərbaycan Atabəyləri-Eldəgizlər dövlətinin paytaxtı olan, əsası Əcəmi Naxçıvani tərəfindən qoyulan memarlıq məktəbi ilə bütün Şərqdə tanınan və böyük səylə, yüksək bacarıqla, əsrarəngiz zövqlə inşa edilmiş tarixi abidələri ilə məşhur olan Naxçıvan torpağı bu gün də öz tarixiliyini, gözəlliyini qoruyub saxlayır və dünyanın ən əzəmətli, qədim diyarı kimi bura gələn insanları, qonaqları heyran qoyur.

Uzun illər gərgin siyasi mübarizələrin meydanına çevrilən qədim Naxçıvanın muxtariyyatının əsasları 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Azərbaycanın Şərqə açılan qapısı olmaqla zəngin dövlətçilik tarixinə malik olan Naxçıvan Muxtar Respublikası 9 fevral 1924-cü ildə yaradılmış və milli, qədim ənənələri qoruyub saxlamışdır.

Qədim mədəniyyəti, bərəkətli sərvəti, dahi şəxsiyyətləri ilə Azərbaycan Respublikasında xüsusi payı və yeri olan Naxçıvan Muxtar Respublikası bu gün istər iqtisadi-siyasi, istərsə də elm və mədəniyyət sahəsində tərəqqinin ən yüksək pilləsində dayanır. Belə ki, 1883-cü ildən fəaliyyət göstərən Naxçıvan teatrı Azərbaycan teatr mədəniyyətinə böyük töhfələr bəxş etmişdir. Şərqdə ilk akademiyanı və rəsədxananı yaratmış Nəsirəddin Tusi, qüdrətli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadə, Azərbaycan realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərli, ilk tarixi romanların müəllifi Məmməd Səid Ordubadi, böyük maarifçi və ədib Məhəmməd Tağı Sidqi, romantizm ədəbi cərəyanının görkəmli nümayəndəsi Hüseyn Cavid, dünyaca məşhur kimyaçı alim, akademik Yusif Məmmədəliyev, görkəmli publisist, dilçi-alim Məhəmməd ağa Şahtaxtlı, Xalq şairi Məmməd Araz, Xalq yazıçısı Hüseyn İbrahimov bu diyarın yetirmələridir. Qüdrətli sənətkar və alim kimi tanınan Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin ev muzeyləri, ədəbiyyat, tarix və xalça muzeyləri Naxçıvanın mədəni həyatında mühüm yer tutur.

Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas elm, mədəniyyət, təhsil və ictimai fikir mərkəzlərindən biri sayılır. Azərbaycan Milli Elmlər Akademiyasının prezidentləri, görkəmli kimyaçı alim Yusif Məmmədəliyev, yarımkeçiricilər fizikası məktəbinin yaradıcısı Həsən Abdullayev, məşhur riyaziyyatçı Fərəməz Maqsudov, informatika-radiasiya üzrə qəbul olunmuş elm xadimi, professor Mahmud Kərimov, akademik Məmməd Cəfər Cəfərov, professor Abbas Zamanov, akademik Teymur Kərimli və onlarla başqa görkəmli elm xadimləri Azərbaycan elminə, təhsilinə, ictimai fikrinin inkişafına yeni səhifələr yazmış, öz elmi potensialları və bacarıqları ilə Naxçıvanı tək Azərbaycanda deyil, bütün dunyada tanıtmışlar.

Böyük tarixi şəxsiyyətlər, alimlər, yazıçı və şairlər vətəni olan Naxçıvan Azərbaycanın elmi və mədəni inkişafına güclü təkan vermiş, görkəmli liderləri və elm adamları ilə məşhurlaşmışdır. Bunlardan biri də yüksək istedad və bacarığı ilə Azərbaycan poeziyasına dəyərli sənət inciləri bəxş edən görkəmli şairimiz Məmməd Arazdır. Şairin Naxçıvanın tarixindən, əsrarəngiz təbiətindən, təbii sərvətlərindən bəhs edən "Naxçıvanım mənim" adlı şeiri bizim üçün ana laylası qədər şirin, doğma və əzizdir:

***Sinəmdə o yerin dağ havasıdır.***
***Qaynar bulaqları qaynar qanımda.***
***Mənim ürəyimin bir parçasıdır***
***Doğma Şahbuzum da, Naxçıvanım da.***

Tarixə nəzər salsaq görərik ki, böyük tarixi hadisələrin, keşməkeşli günlərin şahidi olan qədim diyarımız həmişə olduğu kimi son illərdə də bütün çətinliklərə sinə gərərək düşmənlərin caynağından, həris yağı gözlərindən, məkrli əllərdən özünü qoruya bildi. Belə bir ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik, şücaət və yenilməzlik nümayış etdirərək Azərbaycanın bu qədim diyarını düşmənlərdən - mənfur erməni təcavüzkarlarından öz canları bahasına qorudu və qoruyur.



Xalqımızın böyük oğlu, Ümummilli lider Heydər Əliyevin 1990-cı ilin iyul ayının 22-də canından çox sevdiyi Naxçıvanına dönməsi, doğma el-obasına qayıtması çətin günlərini yaşayan Naxçıvanı dirçəltdi, burada yaşayan insanlarda sabaha, gələcəyə böyük inam hissi yaratdı. Bu illər Naxçıvan Azərbaycanda gedən siyasi proseslərə, o cümlədən milli azadlıq mübarizəsinə böyük təkan verdi. Müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin gücləndirilməsinə və tərəqqisinə, ərazilərimizin azad olunmasına Naxçıvandan başlanan böyük siyasi dalğanın təkanı daha təsirli oldu. Bunu xalqımızın Ümummilli lideri Heydər Əliyevin dərin, məzmunlu nitqində də görmək mümkündür: "Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır".

Bu gün Muxtar Dövlətimiz - Naxçıvan Muxtar Respublikası özünün ən dəyərli, yaddaqalan günlərini yaşayır. Muxtar diyarımız Azərbaycan Respublikasının Ümummilli lideri, tarixi şəxsiyyəti möhtərəm Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən əsasını qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsi ilə daha da çiçəklənir, möhkəmlənir və inkişaf, tərəqqi yolunda inamlı addımlar atır. Ulu öndərin yaradıb, xalqımıza ərmağan etdiyi siyasi, milli ideologiyanı, qarşıya qoyduğu müqəddəs vəzifələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Ötən illərlə müqayisə etsək, görərik ki, bu gün də Azərbaycanın mədəni və elmi həyatının tərəqqisinə Naxçıvan Muxtar Respublikası öz dəyərli töhfələrini vermiş, bu sahədə inkişaf yüksək səviyyəyə çatmış və böyük uğurlar qazanılmışdır. Tarixi və mədəni irsin qorunması və təbliği, mədəni-elmi potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması xarakter hal almışdır. Azərbaycan mədəniyyətinə və elminə əsrarəngiz töhfələr bəxş etmiş naxçıvanlı alimlərin, şair və yazıçıların, görkəmli mədəniyyət xadimlərinin adları əbədiləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvanda səfərdə olurkən Naxçıvanda, o cümlədən bütün sahələrdə irəliləyən tərəqqini və inkişafı yüksək qiymətləndirərək demişdir: "...Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardr. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri, bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı...".

Onu da qeyd etmək lazımdır ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il sentyabrın 19-20-si tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Naxçıvanın vətənpərvər, igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar. Onların şücaəti, qəhrəmanlığı kiçikdən böyüyə kimi hər bir kəsin dilində dastana dönmüş, məzarları isə bütün azərbaycanlılar, o cümlədən naxçıvanlılar üçün and yerinə, ziyarətgaha çevrilmişdir.

Qarabağda qazandığımız Şanlı Zəfərdən sonra 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri ilə bağlı təəssüratlarını bölüşən dövlətimizin başçısı İlham Əliyev demişdir: "Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, buradakı inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir... Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır" ("Şərq qapısı" qəzeti, 17 may 2021-ci il, №87).

Prezident İlham Əliyev prezidentliyi müddətində 15 dəfə muxtar respublikada səfərdə olub. Bu səfərlərdə dövlət başçısı qədim Naxçıvanımızın sosial-iqtisadi və mədəni inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, Dövlət proqramları imzalayıb. Ölkə başçısı tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı qədim diyarımız Naxçıvanın zəngin dövlətçilik tarixində, ölkəmizin inkişafında mühüm yer tutduğunun bariz göstəricisidir.

İnanırıq ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası və onun ayrılmaz parçası olan Naxşıvan diyarı daim öz müstəqilliyini, azadlığını, bütövlüyünü qoruyub saxlayacaq, dünyada gedən bütün siyasi-iqtisadi və mədəni proseslərdə fəal, öndər olacaq. Elm, təhsil, idman, iqtisadi, siyasi, mədəni, demək olar ki, bütün sahələrdə Üçrəngli bayrağımız dünyanın hər yerində vüqarla, qürurla dalğalanacaq, bizlərin, bizi sevənlərin və gələcək nəsillərin birlik, azadlıq, bütövlük simvoluna çevriləcək.

***Samirə Həsənova,***
***Filologiya üzrə***
***fəlsəfə doktoru, dosent***
***Naxçıvan Müəllimlər***
***İnstitutu***

# Sosial və siyasi mədəniyyət

## Fəal vətəndaşlığın göstəricisi kimi...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti üzrə hazırlanmışdır**

Gənclərin cəmiyyətə adaptasiyası üçün onların öz hüquqlarını dərk etməsi, vəzifələrini yerinə yetirməsi, məsuliyyətlilik və intizamlılığın artırılması mühüm amildir. Vətəndaşlıq tərbiyəsi şəxsiyyətin formalaşmasında ən başlıca ünsürdür. Çünki bu tərbiyəyə diqqət edilmədikdə kamil insan və yetkin şəxsiyyət yetişdirmək düzgün deyil. Belə ki, şəxsiyyət ilk növbədə vətəndaşlıq məziyyətlərinə, yəni vətəndaşlıq ləyaqətinə, müstəqillik, dövlətçilik ruhuna malik olmalıdır.

Məlumdur ki, Azərbaycan milli ənənələrə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən hüquqi bir dövlətdir. Bu baxımdan vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək üçün dövlətimiz sosial siyasətini uğurla həyata keçirir. Hər bir dövlətin Konstitusiyası hüquqi, sosial, siyasi funksiyaları ilə yanaşı, tərbiyəvi funksiyanı da əhatə edir. Bu da hər şeydən əvvəl, şəxsiyyətdə Konstitusiyaya, dövlətin qanunlarına, vətəndaşın hüquq və azadlıqlarına hörmət ruhu aşılayır, müəyyən dünyagörüşü formalaşdırır.

**Siyasi və hüquqi mədəniyyətə malik şəxslər**

Mövzu ətrafında fikirlərini "Yeni Azərbaycan"la bölüşən sosioloq Sahib Altay bildirib ki, vətəndaşlar fərqli ola bilər, lakin onları vahid sosiumda birləşdirəcək ümumi xüsusiyyətlər olmalıdır. Sosioloqun sözlərinə görə, gənclər bilməlidirlər ki, əsl vətəndaş mənsub olduğu cəmiyyəti fəal şəkildə müdafiə edən, onu inkişaf etdirən və ona xidmət edən şəxsdir: "Layiqli vətəndaş yalnız öz hüquqlarını bilən deyil, onları müdafiə edən haqsızlıqlara qarşı çıxan, Vətəni, onun keçmişi və gələcəyi ilə bağlı məsuliyyət daşıyan, siyasi və hüquqi mədəniyyətə malik şəxsdir".

**Vətəndaşlıq tərbiyəsinin komponentləri...**

S.Altay bildirib ki, gənclərə vətəndaşlıq tərbiyəsinin aşılanması onların öz hüquqlarını qorumasına və vətəndaşlıq vəzifələrini reallaşdırmasına zəmin yaradır: "Tədris müəssisələrində təhsil aldıqları müddətdə belə bir hazırlıq tərbiyəvi işin tərkib hissəsi kimi gənclərin formalaşmasına yönəlmiş bir sıra komponentləri özündə birləşdirir. Bunlar nəzəri, əməli və emosional komponentlərdir.



Nəzəri komponent gənclər tərəfindən vətəndaş həyatı üçün lazım olan iqtisadi, hüquqi, psixoloji, siyasi və başqa biliklərin, həmçinin ağlın və intellektin inkişafının əldə edilməsini nəzərdə tutur. Bu komponent sosial-humanitar fənlərin kompleksinə, yəni tarix, fəlsəfə, sosiologiya, politologiya, kulturologiya, hüquqşünaslıq, psixologiya və s. aiddir.

Əməli komponent mülki həyatda aktual olan müxtəlif texnoloji bacarıq və vərdişləri əhatə etməlidir. Söhbət gənclərin seçkilərdə, referendumlarda, ictimai təşkilatların toplantılarında iştirakı bacarıqlarından gedir. Vacibdir ki, gənclər ictimai həyat sahəsində lazımi bacarıqlar və vərdişlərə yiyələnsin, vətəndaş cəmiyyətinin prosedurlarını öyrənsinlər.

Emosional komponent gənclərdə Vətənin, dövlətin taleyinə, onun rəmzlərinə vətəndaşlıq duyğularının ifadə olunması ilə bağlıdır. Məsələn, dünya ölkələrinin bir çoxunda vətəndaşlar daim öz yaşadıqları evlərin eyvanında dövlət bayrağı taxır, öz ölkəsinin himnini dinləyir və oxuyur, mühüm tarixi günlərlə, hadisələrlə, ölkəsinin uğurları ilə bağlı mərasimlərdə iştirak edirlər.

**Nəticə...**

Sosioloq bildirib ki, vətəndaşlıq tərbiyəsi nəticəsində şəxsiyyətdə bir çox mühüm və bəşəri xüsusiyyətlər formalaşır: "Bu tərbiyə şəxsiyyətin hüquq və vəzifələrinin dərk edilməsini təmin edən, ümumbəşəri dəyərlər və şəxsiyyətin maraqları ilə bağlı olan, vətəndaşlıq keyfiyyətlərini özündə birləşdirən vətəndaşlıq şüuru, vətəndaşlıq hissi, vətəndaşlıq davranışı, vətəndaşlıq fəallığı və vətəndaşlıq mövqeyini formalaşır.

Qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, tədris müəssisələrində həyata keçirilən vətəndaşlıq tərbiyəsi şəxsiyyətin sosiallaşmasına xidmət edir. Eyni zamanda təhsilalanlarda yüksək vətənpərvərlik şüurunun, öz Vətəninə sədaqət hislərinin formalaşmasına, onun mənafelərinin müdafiəsi üzrə vətəndaşlıq borcunun və Konstitusiya vəzifələrinin icrasına hazırlıqla bağlı məqsədyönlü və sistemli təşkil edilmiş fəaliyyət kimi dəyərləndirilir. Belə ki, hər bir azərbaycanlı vətəndaşının mübariz ruhlu, qərarlı, sağlam əqidəli insan kimi yetişərək cəmiyyət həyatına düzgün adaptasiyası tələbi gənc nəslin tərbiyəsi ilə məşğul olan hər kəsin üzərinə məsul vəzifələr qoyur".

***Y.SAHİB***




# Haylar, ərazi iddiaları və xəyanətlər...

Bu yaxınlarda tarixçi Əmrah Teymuroğlunun soyqırıma məruz qalan soydaşlarımız, ermənilərin tarix boyu əzəli torpaqlarımızda məskunlaşması və ərazilərimizi işğal etməsi barədə tarixi həqiqətlərdən bəhs edən kitabı çapdan çıxıb. 414 səhifədən ibarət olan "Haylar, ərazi iddiaları və xəyanətlər" adlı kitab "Elm və təhsil" nəşriyyatında işıq üzü görüb. Müəllif kitabı soyqırıma və deportasiyaya məruz qalanların, Vətənin azadlığı uğrunda həlak olmuş şəhidlərimiz və günahsız qurbanlarımızın xatirəsinə ithaf edib.

Kitabda, həmçinin ermənilərin ictimai mənşəyi və kimliyi, onların qədim zamanlardakı əzəli torpaqları və vətənləri, oradan köç etmə səbəbləri, zaman-zaman özgə torpaqlarına səpələnərək sığındıqları və məskunlaşdıqları ərazilərdə torpaq və ərazi iddialarından, özgə torpaqlar hesabına özünə dövlət qurmaq xülyalarından bəhs edilir.

Tarix boyu ermənilər özlərini "hay", məskunlaşdıqları ərazini isə "Hayastan" adlandırıblar. Bəs, onlara "hay" adını kim vermişdi? Əgər "haydırsa", onları niyə "erməni" adlandırıblar? Müəllif sual doğuran bu məsələlərə aydınlıq gətirmək üçün tarixi faktlara əsaslanaraq olduqca maraqlı məqamlara toxunub. Ə.Teymuroğlu, eyni zamanda, erməni dilinin xüsusilik təşkil edərək heç bir dil qrupuna daxil olmadığını qeyd edib.

Kitabda qoyulan məsələ və suallar oxucunu düşünməyə, keçmişi xatırlamağa, ondan nəticə çıxarmağa, ən əsası unutqan olmamağa, hər zaman ehtiyatlı, ayıq-sayıq olmağa vadar edir.

Qeyd edək ki, Mədətov Əmrah Teymur oğlu 1948-cin ildə Dərələyəz mahalının Horbadeğ kəndində anadan olub. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirib. 1984-cü ildən isə Mingəçevir Tarix Muzeyinin direktoru vəzifəsində işləyib. Bundan başqa, tarixçi 1985-ci ildən orta məktəbdə, 2000-ci ildən isə Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialında tarix müəllimi kimi çalışıb.

# 101-ci Baş nazir...

## Siqeru İsiba Yaponiyanın yeni hökumət başçısı seçilib

Yaponiyada yeni hökumət formalaşıb. Fumio Kişidanın rəhbərlik etdiyi hökumət tam tərkibdə istefa verib. Bu barədə Yaponiya hökuməti başçısının dəftərxanası məlumat yayıb. Bildirilib ki, Fumio Kişidanın kabinetində yer alan bütün hökumət üzvləri istefa ərizələrini yazıblar. Yeni hökumətə hakim Liberal Demokratik Partiyanın (LDP) yeni sədri Siqeru İsiba rəhbərlik edəcək. Oktyabrın 1-də Yaponiya parlamentinin hər iki palatasında keçirilmiş səsvermənin nəticələrinə əsasən, o, bu posta seçilib. Beləliklə Siqeru İsiba Yaponiyanın sayca 101-ci Baş naziri olub.

## Siqeru İsiba söz verib

Siqeru İsiba F.Kişidanın səlahiyyət müddətinin başa çatması ilə əlaqədar sentyabrın 27-də keçirilən seçkilərdə LDP-nin sədri vəzifəsinə gəlib. Sədr seçkisinin birinci turunda 9 namizəddən heç biri yetərli sayda səs yığa bilmədiyi üçün ikinci mərhələ təşkil olunmuşdu. İkinci turda Siqeru İsiba iqtisadi təhlükəsizlik məsələləri üzrə dövlət naziri xanım Takayçi Sanaeyə qalib gələrək, qısa fasilələrlə 1955-ci ildən Yaponiyada hakimiyyətdə olan mühafizəkar Liberal Demokrat Partiyasının rəhbəri seçilib.

Qeyd edək ki, 67 yaşlı Siqeru İsiba indiyədək bir sıra yüksək vəzifələrdə çalışıb. O, 2002-ci ildən 2004-cü ilədək Yaponiya Müdafiə Agentliyinin baş direktoru, 2007-ci ildən 2008-ci ilədək müdafiə naziri, 2008-ci ildən 2009-cu ilədək kənd təsərrüfatı, meşəçilik və balıqçılıq naziri vəzifələrində işləyib. 2012-ci ildə LDP-nin baş katibi, 2014-cü ildən 2016-cı ilədək yerli iqtisadi dirçəliş və əhalinin azalması ilə mübarizə məsələləri üzrə nazir vəzifəsini tutub.

Yeni baş nazir seçkiqabağı açıqlamalarında ölkəsini yüksək inflyasiya zonasından çıxaracağına söz verib. O, bərpa olunan enerji hesabına nüvə enerjisindən asılılığı azaltmağın tərəfdarıdır. Tokionun Vaşinqtonla müttəfiqliyinin möhkəmləndirilməsinin vacibliyini bildirən Siqeru İsiba regional təhdidlərə cavab olaraq NATO-nun Asiya versiyasını yaratmağı təklif edib.

## Yeni baş nazir parlamenti buraxacaq

Şiqeru İsiba həm də, parlamentin aşağı palatasını buraxmaq və növbədənkənar seçkilər keçirmək qərarına gəlib. Bu barədə ölkənin "Kyodo" agentliyi məlumat yayıb. Yaponiya parlamentinin əsas aşağı palatasına növbəti seçkilər 2025-ci ilin oktyabrına qədər keçirilməli idi, lakin Baş nazir erkən seçkilər keçirmək üçün palatanı buraxmaq hüququndan istifadə etməyi düşünür.

Bundan əlavə yeni Baş nazir artıq hökuməti də formalaşdırmaqdadır. Belə ki, Takeşi İvaya Yaponiyanın yeni xarici işlər naziri təyin olunub. Baş nazir Siqeru İsiba tərəfindən formalaşdırılan yeni hökumət üzvlərinin siyahısını Nazirlər Kabinetinin baş katibi Yosimasa Hayasi açıqlayıb. Bundan əlavə, Hen Nakatani ölkənin müdafiə naziri vəzifəsini tutub. Nazirlər Kabinetinin keçmiş baş katibi Katsunobu Kato maliyyə naziri, iqtisadiyyat, ticarət və sənaye naziri isə əvvəllər bu qurumda nazir müavini olmuş Yodji Muto təyin edilib.



## Dünyanın ən inkişaf etmiş 7 ölkəsindən biri

Qeyd edək ki, Yaponiya dünyada ən inkişaf etmiş 7 ölkədən biridir. Belə ki, bu ölkə nominal ÜDM-ə görə dünyanın ən güclü 4-cü, alıcılıq gücünün tarazlığına görə isə dünyanın ən güclü 3-cü iqtisadiyyatına malikdir. Yaponiya, həm də dünyanın ən böyük 5-ci ixracatçısı və dünyanın ən böyük 5-ci idxalçısıdır. Yaponiya rəsmi olaraq müharibə elan etməmək istədiyini konstitusiyasında göstərsə də, dünyanın ən böyük 8-ci hərbi büdcəsinə malikdir və silahlı qüvvələrindən ancaq özünü və sülhü qorumaqda istifadə etdiyini bildirir. Yaponiya yüksək yaşayış normasına və İnsan İnkişafı İndeksinə malik inkişaf etmiş ölkədir, əhali yüksək yaşayış imkanlarından yararlanır. Ölkənin əhalisi 126 milyon nəfərdir və bu göstəriciyə görə dünyada 10-cu yerdədir.

Son illər Yaponiyada inflyasiyanın artımı narahatlıq doğurur. Yeni baş nazirin ölkəsini yüksək inflyasiya zonasından çıxaracağına söz verməsi də buradan qaynaqlanır. Təsadüfi deyil ki, bu ilin avqust ayında Yaponiya fond bazarında 1987-ci ildəki "qara bazar"dan bəri ən böyük çökmə baş verib. "Nikkei" Tokio Fond Birjasının əsas indeksi ticarətin yekununda 12 faizdən çox ucuzlaşıb və 1987-ci ildə birjanın çökməsi hadisəsindən sonra səhmlərdə ən böyük itkiyə məruz qalıb. Maliyyə sektoru tənəzzülün önündə gedir. Beləliklə, Yaponiyanın üç ən iri bankının kotirovkaları 20 faizə düşüb. "Mitsubishi UFJ Financial Group" 17,84 faiz, "Sumitomo Mitsui Financial Group" 15,52 faiz, "Mizuho Financial Group" 19,71 faiz ucuzlaşıb.

Emosiyaları sakitləşdirmək üçün yapon fond bazarında ticarət bir neçə dəfə dayandırılıb. Yapon yeninin bahalaşması ilə əlaqədar olaraq xaricdə aktiv ticarət edən şirkətlərin qiymətləri kəskin şəkildə aşağı düşüb. Valyuta çətin dövrlərdə etibarlı amil hesab olunur, lakin avtomobilləri və digər yapon mallarını xaricdə daha bahalı edir. Bölgədəki digər fond bazarları da kəskin şəkildə mənfi zolağa düşüb. Bütün bunların fonunda Siqeru İsiba hesab edir ki, onun formalaşdırdığı hökumət problemlərin öhdəsindən gələcək.

*N.BAYRAMLI*

# Yaxın Şərq yeni dünya qarşıdurmasının nüvəsi rolunda...

## 1945-ci ilin bu günündə bitən qanlı müharibə yenidən başlayacaqmı?

Son 50 ildə İsrail ilə Livan arasındakı gənginliyin 4-cü fazası başlayıb. Artıq bir neçə gündür davam edən lokal bombardmanlar, hədəflərin vurulması yeni quru əməliyyatı ilə əvəz edilib. Belə ki, İsrail hərbi qüvvələri Livanla sərhəddə cəmləşib. Quru əməliyyatına dünən səhər saatlarından başlanılıb və Livanın cənub hissəsini əhatə edir.

## Livan tarixinin ən təhlükəli mərhələsi...

Livanın baş naziri Nəcib Mikati bildirib ki, ölkəsi tarixinin ən təhlükəli mərhələlərindən biri ilə üzləşib. O, İsrailin hava hücumları səbəbiylə evlərini tərk etmək məcburiyyətində qalan 1 milyondan çox insana yardım üçün müraciət edib.

Qeyd edək ki, Livan ordusu İsrail sərhədindəki bəzi müşahidə məntəqələrini köçürdüyünü açıqlayıb. Rəsmi Təl-Əvivin lokal adlandırdığı əməliyyatın Livandan əldə etdiyi məlumatlar əsasında aparıldığı bildirilib.

## İsrail ordusunun məqsədi...

Xəbər agentliklərinin yazdığına görə isə, sentyabrın 23-dən başlanan gərginliklər zamanı ən azı 1200 nəfər livanlı həyatını itirib. Bombardman zamanı Livanın cənubunda yerləşən və "Hizbullahın şərq qalası" sayılan Bekaa vadisinə qədər bir çox yerlər hədəfə alınıb. Təl-Əviv günlərdir gözlənilən əməliyyat ilə yeni cəbhə açdığını, Livanın cənubunda "məhdud, yerli və hədəfli" əməliyyat keçirəcəyini bildirib. İsrail ordusu quru əməliyyatı ilə "Hizbullah" döyüşçülərini Litani çayının şimalına çəkmək istəyir.

## Hizbullah məsuliyyəti üzərinə götürdü

Livanın ən böyük hərbi gücü, arsenalında on minlərlə döyüşçüsü və 150 minə yaxın raketi olduğu təxmin edilən "Hizbullah" qruplaşması isə birbaşa İsrail quru qoşunlarını hədəfə aldığını açıqlayıb. Hizbullaha yaxınlığı ilə tanınan Əl Meyadin televiziyası İsrail əsgərlərinin sərhəd xəttində yerləşən Şutula bölgəsində artilleriya atəşinə məruz qaldığını xəbər verib. Bildirilib ki, quru hücumu əsasən Vezzani, Hıyam kimi yerlərə artilleriya atəşi ilə başlayıb. Mercayun sərhəd xəttində isə sıx hava hücumları davam edib.



"Hizbullah" İsrailin mərkəzinə raket hücumuna görə məsuliyyəti öz üzərinə götürüb. Qeyd edək ki, qruplaşma İsrail ordusunun 8200-cü bölməsi və Mossad qərargahının yerləşdiyi Herzliya yaxınlığındakı Glilot bazasına "Fadi-4" raketləri atdığını elan edib. İsrail ordusu isə Livanın cənubunda yerləşən "Hizbullah" bazalarını hədəf alacağını və Livan xalqına qarşı müharibə olmadığını açıqlayıb. Ordu sözçüsü kontr-admiral Daniel Hagari bildirib ki, "zərbələrimiz sərhədimiz boyunca İsrail şəhərlərini təhdid edən "Hizbullah" qalalarını hədəf alacaq".



İsrail ordusu İsrailin şimalında Livan sərhədinə yaxın Metula, Misgav Am və Kfar Giladi ətrafındakı əraziləri "qapalı hərbi bölgə" elan edərək, bu ərazilərə girişin qadağan olunduğunu açıqlayıb.

## Türkiyə qeyri-qanuni işğal sayır, ABŞ İrana xəbərdarlıq edir...

Türkiyənin Xarici İşlər Nazirliyi Livan-İsrail qarşıdurması ilə bağlı açıqlama yayıb. Bildirilib ki, İsrailin Livana qurudan hücum edərək bu ölkənin suverenliyini və ərazi bütövlüyünü pozması qeyri-qanuni işğal cəhdidir.

Bu arada ABŞ-dan İrana xəbərdarlıq edilib. Belə ki, ABŞ-ın müdafiə naziri Lloyd Ostin israilli həmkarı Yoav Gallant ilə telefon danışığında İranı hədələyib. Ostin telefon danışığında İranı birbaşa xəbərdar edib və İsraillə müharibəyə getmənin ciddi nəticələrə yol açacağını bildirib.

## İngiltərə evakuasiyalara başladı

Kipr adasındakı Akrotiri bazasında hazırlıq prosesi başladan İngiltərə Livandan hava təxliyyə əməliyyatına başlayıb. İngiltərə Xarici İşlər Nazirliyi Livandan çıxarılacaq Britaniya vətəndaşları üçün ticari sərnişin təyyarəsinin icarəyə götürüldüyünü açıqlayıb. Təxliyyə zamanı ilk olaraq həssas sərnişinlərə üstünlük verilib. Livandan evakuasiyaları dəstəkləmək üçün Kiprə 700 nəfərlik qüvvə göndərilib.

## BMT açıqlama yaydı

Birləşmiş Millətlər Təşkilatından (BMT) verilən açıqlamada isə 1978-ci ildən Livanda xidmət edən sülhməramlıların qarşıdurmalar səbəbilə sərhəd patrul xidməti həyata keçirə bilmədikləri bildirilib. BMT baş katibinin sözçüsü Stefan Düjarrik bildirib ki, 10 mindən çox şəxsi heyətdən ibarət sülhməramlı qüvvələr qarşılıqlı artilleriya atəşi səbəbindən mövqelərini dəyişə bilməyiblər.

BMT-nin Humanitar Yardım Koordinasiya Ofisi (OCHA) Livanda artan ehtiyaclarla bağlı yazılı açıqlama yayıb. Bəyanatda bildirilib ki, BMT və Livandakı humanitar yardım tərəfdaşlarımız Livan hökuməti ilə birlikdə üç aylıq təcili yardım kampaniyası başladıb. Ölkədə sürətlə artan humanitar ehtiyacları qarşılamaq üçün kampaniya beynəlxalq donorlardan 426 milyon dollar tələb edərək 1 milyon insana humanitar yardım göstərmək məqsədi daşıyır.

Livanda son iki həftədə artan gərginlik nəticəsində bir çox insanın həyatını itirdiyi və köçkünlük dalğasının yaşandığı vurğulanan bəyanatda həm də 6 mindən çox insanın yaralandığı qeyd edilib: "Livan rəsmilərinin məlumatına görə, keçən ilin oktyabr ayından bəri böhrandan birbaşa təsirlənən və ya köçkün düşmüş təqribən 1 milyon insan var (rəqəm son iki həftədə sürətlə artıb)".

## NATO siyasi həlli dəstəkləyir...

Dünən NATO-nun Baş katibi postunu Mark Rutteyə təhvil verən Yens Stoltenberq isə NATO-nun Livandakı vəziyyətdən dərin narahatlıq keçirdiyini bildirib. O, müttəfiqlərin həm Qəzzada, həm də Livanda gərginliyin azaldılması və siyasi həllə nail olunması səylərini dəstəklədiyini deyib.

## 79 il əvvəl bitdiyi gün yenidən başlayır...

Qərbin aparıcı analitikləri Yaxın Şərqdə baş verənləri yeni dünya müharibəsinin birinci tsikli kimi izah edir. Hazırda dünyada bir neçə hərbi, siyasi və ideoloji xəttin "rəqibə" çevrilməsi fonunda ilkin mərhələ kimi Yaxın Şərqdə "sütunların bərkidilməsi" işinə başlandığı bildirilir. Diqqət çəkən məqamlardan biri isə Yaxın Şərqin əsas döyüş meydanına çevrilməsi tarixidir - belə ki, oktyabrın ilk iki günündə başlanan bu mübarizə yaddaşları bir az geriyə fokuslayır:

- 1945-ci ilin oktyabrın ilk günlərində II Dünya müharibəsi rəsmən sona çatmışdı;

-1946-cı ilin oktyabrın 1-də isə nasist liderlərinə Nürnberq prosesində hökm oxunmuşdu.

Beləliklə, dünya hegemoniyası uğrunda mübarizə deyəsən 79 ildən sonra bitdiyi gündən yenidən başlayır. Beynəlxalq analitik mərkəzlər başlama ehtimalı böyük olan III Dünya müharibəsini özündən əvvəlkilərlə müqayisə etmək belə istəmirlər. Bu müharibənin hətta Yer kürəsi üçün bir son ola biləcəyi ehtimalı da istisna olunmur...

*S.İSMAYILZADƏ*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Ölümsüzlüyün Çingiz portreti...



## Milli Qəhrəman Çingiz Babayevin doğulduğu gündür

Qəhrəmanlar təkcə cəbhədə, müharibədə, döyüşdə olmur ki... Gündəlik həyatımızda bir insana kömək etmək, bir acın qarnını doyurmaq, çarəsiz birinə həyan olmaq, ən çətin situasiyalarda öz həyatını heçə sayıb başqa canları düşünməyin özü də qəhrəmanlıqdır, əlbəttə.

Bu gün həmin qəhrəmanlardan birinin-Çingiz Babayevin doğulduğu gündür. Oktyabr onun üçün bu dünyaya həm gəliş, həm də gediş ayıdır. Yaşasaydı ailəsi, qohumları, tanışları, onu sevənlər bu gün onun 60 illik yubileyini qeyd etmək üçün yığışacaqdılar, çox güman. O isə ömrünün 31-ci ilində elə doğulduğu ayda xalqının mərd qəhrəmanı kimi əbədiyyətə ucalmağı seçdi. Özü də çox adi günlərin birində, gündəlik etdiyi kimi işdən evə qayıdarkən...

****

Çingiz Babayev 2 oktyabr 1964-cü ildə Bakı şəhərində dünyaya göz açıb. Ailənin tək övladı olan Çingiz elə uşaqlıqdan hərb sənətinə maraq göstərir, hər kəsə kömək əlini uzatmaqdan çəkinməzmiş. Ən sevdiyi oyuncaqları da silah olan Çingiz elə o yaşlarından "mən əsgər olacağam" deyib gələcəyin xəyallarını qurarmış. Nəhayət, arzusuna yetişir...

Əslən Naxçıvandan olan Çingiz Yasamal rayonundakı 20 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olur. 1986-cı ildə ali təhsilini başa vurub, təyinatla Azərelektroterm zavodunda əmək fəaliyyətinə başlayır. Gənc oğlan işləyə-işləyə həm də Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun nəzdində ingilis dili üzrə ikiillik kursu bitirir. 1992-ci ildə Çingiz Yasamal rayon Əhalinin Əmək və Məşğulluq Mərkəzində aparıcı mütəxəssis vəzifəsinə işə qəbul olunur.

Lakin artıq onu Vətən çağırırdı, hərbi xidmət keçməyin zamanı gəlmişdi. Çingizin ən böyük arzusu da yerinə yetirdi, o, əsgər olurdu. Vətənin səsinə səs verən oğlan 1992-ci ilin avqust ayında könüllü olaraq Milli Ordu sıralarına daxil olur. Bir müddət hərbi hissələrin birində qərargah rəisi vəzifəsində xidmət edir, 1994-cü ildə Azərbaycan Müdafiə Nazirliyinin sərəncamı ilə C.Naxçıvanski adına hərbi litseyə keçirilir. Burada əvvəlcə taqım komandiri kimi xidmət göstərir. Sonra təcrübəsini nəzərə alıb, onu bölük komandirinin siyasi və tərbiyəvi işlər üzrə müavini vəzifəsinə irəli çəkirlər. O, təlim-tədris sahəsində qazandığı yüksək nəticəyə görə komandanlıq tərəfindən "Şah İsmayıl Xətai" Fəxri Fərmanı ilə təltif edilib.

Hələ hərb sahəsində arzuları, xəyalları çox idi Çingizin. Amma tale onun üçün başqa qismət hazırlamışdı.

1995-ci ilin 28 oktyabr günü... Cəmi 26 gün idi 31 yaşına qədəm qoyduğu. Ömrünün hələ başlanğıcında, ən gözəl illərində idi. Payız axşamının çiskinindən qaçıb metroya daxil olmuşdu yüzlər, minlər kimi... İnsanların qaynaşdığı, kimini evinə, kimini işinə, kimini görüşə, kimini ən gözəl gününə aparan, onlara yol yoldaşı olan Bakı metrosu yenə də öz adi rejimi ilə işləyirdi, sərnişinləri mənzil başına çatdırırdı. Birdən "Ulduz" və "N.Nərimanov" stansiyaları arasında hərəkət edən qatarda nəyinsə düzgün olmadığı hiss olundu. Maşinist və sərnişinlər nə olduğunu anlamamış qatar qəfil alovla büründü. Stansiyaların arasında, hər tərəf təhlükə dolu tuneldə çarəsiz insanlar ora-bura vurnuxur, alovdan xilas olmağa çalışırdılar. Alovun dumanı insanların kömək yalvarışlarına qarışmışdı. Kimsənin bu cəhənnəmdən çıxa biləcəyinə inamı qalmasa da, son çarə ümidlə hər yerə əl atırdılar. Çaşqın, köməksiz sərnişinlərin arasında C.Naxçıvanski adına hərbi litseyin zabiti, baş leytenant Çingiz Babayev də var idi. Lap uşaq yaşlarından hər kəsə kömək etməyi özünə insanlıq borcu bilən gənc hərbçi naəlac insanların kömək yalvarışlarına qulaq tıxayıb, sadəcə, öz canının hayına qala bilərdimi? Əlbəttə, yox. O, elə ilk andan fəryad qoparan insanları xilas etmək üçün təcili tədbir görməyi qərara alır. Çingiz qatarda onunla yol gedən kursantları da səfərbər edib, odun-alovun içinə atılır. Cəsur zabitin göstərdiyi misilsiz təşkilatçılıq və fədakarlıq nəticəsində onlarla insan ölümdən xilas olur. Ancaq elə o stansiyada, o qatarın içərisində amansız ölüm onu artıq özü üçün qurban kimi seçmişdi. Gənc oğlan da 31-ci yaşının 26-cı günündə boynuna dolanan ölümdən yaxa qurtara bilmədi. Daha doğrusu, şansı varkən qaçmadı, canını xilas etmədi, son anına qədər alovla mübarizəyə çıxıb öz həmvətənlərini alovun ağzından geri aldı, başqalarının həyatı uğrunda öz həyatını qurban verdi. Əsl qəhrəman, əsl igid kimi...

Həmin vaxt Milli Qəhrəman, baş leytenant Çingiz Babayevlə bərabər insanları ölümün cəngindən, tüstüdən xilas edərkən üç kursant da həlak olub: Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərov. Həlak olan zabit və kursantların xilasetmə zamanı göstərdikləri igidlik və şücaət dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, 1996-cı ildə Ulu öndər Heydər Əliyevin 5 noyabr 1996-cı il tarixli 506 saylı fərmanı ilə C.Naxçıvanski adına hərbi məktəbin taqım komandiri, baş leytenant Çingiz Babayev zərərçəkmişlərin xilas olunmasında göstərdiyi şücaət və qəhrəmanlığa görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Digər bir Fərmanla isə kursantlar Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərov göstərdikləri şücaətə görə ölümlərindən sonra "İgidliyə görə" medalı ilə təltif ediliblər.

Bakının Yasamal rayon qəbristanlığında dəfn edilən Çingizin oxuduğu orta məktəbə və yaşadığı binanın önünə xatirə lövhəsi vurulub, Onun şərəfinə Ulduz metrostansiyasında abidə kompleksi ucaldılıb.

Bütün bunlar dövlətin öz qəhrəmanına göstərdiyi diqqətin təcəssümüdür, əlbəttə. Amma Çingiz Babayev ilk növbədə həmin faciədə həyatını xilas etdiyi körpələrin, qadınların, qocaların, köməksiz insanların qəlbində əbədiyyətə ucaldı, onların ən böyük qəhrəmanlarına çevrildi. Onlarla insanın yanğından sonrakı hər günündə, hər anında əbədiləşdi Çingiz adı. Beləcə çizildi ölümsüzlüyün Çingiz portreti. Və o insanların üzünə doğan hər günəşdə yenidən çizilir...

**Allah rəhmət eləsin!**

*Şahanə MÜŞFİQ*

# Zorakılıqla mübarizə cəmiyyətdən başlayır

## Hansı addımları atmalıyıq?

Zorakılıq hər bir cəmiyyətdə yaşanan sosial problemlərdən biridir. Təəssüf ki, cinsindən və yaşından asılı olmayaraq, insanlar müxtəlif zorakılığın qurbanı olurlar. İllər ötdükcə isə müasir dünyamızda bu problem daha qabarıq şəkildə müzakirə olunur. Zorakılığa məruz qalan şəxslərlə bağlı aidiyyəti orqanlar, həmçinin media qurumları mütəmadi informasiyaları cəmiyyətə ötürürlər.

Ancaq etiraf edək ki, adətən zorakılıqla bağlı yayılan informasiyalar əks reaksiyalara səbəb ola bilər. Belə ki, hər hansı bir zorakılıq hadisəsi müzakirə edildikdə və davamlı olaraq mediada dərc olunduqda ertəsi gün başqa bir zorakılığın şahidi oluruq. Bu, daha çox psixoloji amillərlə bağlıdır. Belə xəbərlər mütəmadi olaraq mediada yer alan zaman eyni və oxşar olan xoşagəlməz hallar yaşanır.

**Media zorakılığa dəstək verir?**

Mövcud media məişət zorakılığı və qətl xəbərlərinə sanki o qədər maraqlıdır ki, bəzən oxunaqlı olsun deyə, peşəkarlıqdan uzaq olan başlıqlarla çoxsaylı xəbərlər yazılır. Ekspertlərin fikrincə, təəssüf ki, bəzi jurnalistlər zorakılığa dəstək verdiklərinin fərqində belə deyillər. Onların sözünə görə, məişət zorakılığı və gender məsələlərində məqsəd İP yığmağa, sensassiya yaratmağa, diqqəti cəlb etməyə yönəlir. Xüsusilə, məişət zorakılığının daha çox qadınlara yönəlik olduğu vurğulanır.

**Dünyada məişət zəminində öldürülənlərin 79%-i...**

Mübahisəli sual hələ də aktualdır. Nə üçün qadın hüququ, qadın qətlindən daha çox danışılır, bəs kişilər zorakılığa məruz qalmır? Statistik göstəricilərə görə, dünyada məişət zəminində öldürülənlərin 79%-i qadınlardır.



Orta rəqəmlə hər gün dünyada 130-dan çox qadın qətlə yetirilir. Belə ki, qadınların böyük əksəriyyəti həyat yoldaşları, keçmiş partnyorları tərəfindən zorakılıq nəticəsində öldürülür.

**Nə edə bilərik?**

Məsələn, post-sovet ölkəsi olan Litvada məişət zorakılığı ilə mübarizə modelində cəmiyyət üzvlərinin birgə iştirakı üçün maraqlı təşəbbüs həyata keçirilir. Belə ki, ərazi üzrə bələdiyyələrdə qara qutular yerləşdirilir, həmin qutulara hansısa zorakılıq görən və ya şahidlik edənlər anonim şəkildə məktub atırlar.

Alman fiziki Albert Eynşteynin belə bir fikri var: "Zorakılıq əxlaq səviyyəsi aşağı olan kişilər üçün həmişə cazibəli gəlib".

Beynəlxalq təcrübə artıq Eynşteynin bu fikrinin əksinə yeni model təqdim edir. Belə ki, tək zorakılıq qurbanına deyil, zorakıya da dəstək praktikası formalaşıb. Praktika göstərir ki, belə şəxslər 3-6 aylıq təlim keçdikdən sonra onların 45 % -i davranışını dəyişə bilər.

Azərbaycanda məişət zorakılığının profilaktikasına diqqətin artırılması məqsədilə 2010-cu ildə "Məişət Zorakılığının qarşısının alınması" haqqında Qanun qəbul edilib. Bununla yanaşı, məişət zorakılığına məruz qalmış uşaq və qadınların tibbi, sosial, hüquqi və psixoloji reabilitasiyası mühüm məsələlərdən biri kimi dəyərləndirilir. Səhiyyə Nazirliyi, digər mərkəzi və yerli dövlət orqanları həmin işlərin təşkili və aparılmasında bilvasitə iştirak edirlər. Bu sahədə kadr potensialının gücləndirilməsi, məişət zorakılığının qarşısının alınması və zorakılıqdan zərərçəkmişlərin reabilitasiyasının aparılması ilə bağlı uşaq və qadınlarla işləyən mütəxəssislərin bilik və bacarıqlarının artırılmasına xüsusi diqqət yetirilir.

Zorakılıqdan söz açmışkən, 2007-ci il iyunun 15-də BMT Baş Assambleyasının qəbul etdiyi qərarla 2 oktyabr tarixi "Beynəlxalq Qeyri-Zorakılıq Günü" kimi qeyd edilir. Bu beynəlxalq günün məqsədi - sülh, dözümlülük, anlayış və zorakılıqdan imtina mədəniyyətini təsdiq etməkdir. 2 oktyabr təsadüfən seçilmiş tarix deyil, məhz bu gün Hindistanın müstəqilliyi uğrunda hərəkatın lideri və qeyri-zorakılıq fəlsəfəsinin banisi Mahatma Qandinin doğum günüdür.

*Yeganə BAYRAMOVA*

## *İdman*

### Triatlonçularımız beynəlxalq yarışda iştirak edəcəklər

Azərbaycan triatlonçuları İspaniyanın Barselona şəhərində keçiriləcək Ironman məsafəsi üzrə beynəlxalq yarışda iştirak edəcəklər.

Azərbaycan Triatlon Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, turnirdə "Tritterra Baku Triathlon Club"nun idmançıları Oleksandr Mordasov, Teymur Fərəcov, Kamil Əliyev, Fəxri Əkbərov, Oleq Kuçerov, İzzət Nəfiyev, Tural Mahmudov və Samir Cavadov medallar uğrunda mübarizə aparacaqlar.



Qeyd edək ki, Ironman normasını yerinə yetirmək uğrunda idmançılar üç sınaqda iştirak edəcək. Onlardan 3,8 km məsafədə üzmək, 180 km velosiped sürmək və 42,2 km marafon məsafəsində yürüşdə iştirak etmək tələb olunur.

Oktyabrın 6-da start götürəcək turnirdə 60 ölkədən 3 000 idmançının iştirakı planlaşdırılır.

### Azərbaycan - Slovakiya oyununun biletləri satışa çıxarılıb




UEFA Millətlər Liqasında qrup mərhələsinin IV turu çərçivəsində Azərbaycan və Slovakiya komandaları arasında keçiriləcək oyunun biletləri satışa çıxarılıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, qiymətlər sektorlara görə 3, 5 və 10 və manat təşkil edir.

VİP sektoruna biletlərin qiyməti isə 20-30 manatdır. Biletləri "İtickets" və satış kassalarından əldə etmək mümkündür.

Qeyd edək ki, oktyabrın 14-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək Azərbaycan - Slovakiya matçı saat 20:00-da start götürəcək.

### Taekvondoçumuz beynəlxalq turnirdə bürünc medal qazanıb



Azərbaycan taekvondoçusu Vasif Səlimov Cənubi Koreyanın Çunçeon şəhərində keçirilən gənclərin dünya birinciliyində uğurla çıxış edib.

Azərbaycan Taekvondo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 63 kiloqram çəkidə mübarizə aparan təmsilçimiz yarışda bürünc medal qazanıb.

V.Səlimov Qırğızıstan, Vyetnam, Tayvan və Tailanddan olan rəqiblərinə qalib gəlsə də, bolqarıstanlı idmançıya məğlub olaraq 3-cü yeri tutub.



## "Nar" Beynəlxalq Jest Dili həftəsi çərçivəsində sağlamlıq imkanları məhdud şagirdlərlə görüşüb

"Nar" sağlamlıq imkanları məhdud şəxslərə dəstəyini davam etdirərək "Karlara Dəstək" İctimai Birliyi ilə birgə Beynəlxalq Jest Dili həftəsində 3 nömrəli xüsusi internat məktəbinin şagirdləri ilə görüş keçirib. Tədbirdə "Nar"ın dəstəyi ilə hazırlanmış, inklüziv cəmiyyət qurmağa yönələn və beynəlxalq mükafata layiq görülmüş jestdili.az elektron jest dili lüğəti təqdim edilib.

Görüş zamanı nitq və eşitmə məhdudiyyətli şagirdlərlə yanaşı, onların məktəb yoldaşlarının da jestdili.az lüğətindən faydalanaraq bir-biri ilə daha rahat ünsiyyət qurmaları üçün saytın ümumi istifadəsi və rahat axtarış sistemi barədə ətraflı məlumat verilib. Müzakirə formatında keçən görüşdə məktəblilərin sualları cavablandırılıb.

Ölkənin ilk elektron jest dili lüğəti nitq və eşitmə məhdudiyyətli şəxslərin və onların yaxınlarının onlayn şəkildə istənilən yerdə və vaxtda Azərbaycan jest dilini tamamilə pulsuz öyrənməyə imkan verir. Daim təkmilləşdirilən elektron lüğət hazırda 4000-dən çox sözün və gündəlik həyatda ən çox istifadə edilən 500-dən artıq cümlənin video izahını təqdim edir. Qeyd edək ki, 2023-cü ildə Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası (IPRA) jestdili.az layihəsini əsas götürərək "Nar"ı ən yaxşı korporativ məsuliyyət kateqoriyasında birinci yerə layiq görüb.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərməkdədir və son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4783
Sifariş: 2253
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI